# Hadisə səhəri

**Şəhid Möhsün Hücəcinin həyat hekayəsi**
**Müəllif: İbrahim Həsənbəyi**

# Giriş

Ya yuxu görürdü, ya da görmürdü. Ya röyaydı, ya da deyildi. Nə idisə vahimə içində qalxıb yatağında oturdu. Sanki nəfəsi gəlmirdi. Əlini qırtlağına qoyub almacığı sıxdı, dərin nəfəs aldı. Yuxusunu ciddiyə almayıb ayağa qalxa, gedib yarım stəkan su içə və yatağına qayıda bilərdi. Lakin döşəyin üstündə oturub fikrə getdi.

Düşündü ki, yuxusu Aşura gecəsi ilə əlaqəsiz deyil. Axşam düşəndən məsciddə olmuş, əza dəstəsinin məclisində sinə vurmuşdu. Hüseynsevərlər dəstəsinin xüsusi əzəməti vardı: uca və fərqli ələm, başı göylərə ucalan kütəllər[1] və yaş sırasıyla düzülmüş dəstə: əvvəldə qocalar, sonra ortayaşlılar, gənclər, axırda da nizamsız sinə vuran yeniyetmə və uşaqlar. Sonra ələm və kütəllər hüseyniyyənin qabağında yerə yatır, sinc və təbillər susur, hamı hüseyniyyəyə girib cərgəylə şam süfrəsinə oturur. O isə hələ də bayırda, həyətdə kürəyini divara dayayıb ayaqlarını boşaldır, yerə döşənmiş tametin üstündə oturub beynini hələ qiyamət səhrası olan, aclıq və susuzluğun İmam Hüseynin (ə) dostlarını əldən saldığı Kərbəla səhrasına aparır.

Yuxusu gecəki hal və hissləri ilə əlaqəsiz deyildi. Yuxuda görmüşdü ki, Kərbəla səhrasındadır, İmam Hüseynin (ə) qoşunundan heç kim qalmayıb. İmam qadın və uşaqların ağlaşma və qışqırıqları arasında meydana gedib. Meydan qanla islanıb, hər iki tərəfdə hər iki qoşunun cəsədləri qan içində yerə sərilib. Onun isə sanki

---

[1] Bəzi bölgələrdə əza simvolu kimi istifadə olunan kütəl yaşıl, qara və qırmızı parçalarla bəzənmiş uzun mil və ya ələmdən ibarətdir. (müt.)

ayaqlarını yerə yapışdırmışdılar. Nə isə etmək istəyirdi. İmamın “mənə kömək edəcək bir adam yoxmu?” deyən səsi qulaqlarında əks-səda verir, amma yerindən tərpənə bilmirdi. Yuxularında olduğu kimi ağırlaşıb yerə yapışmışdı.

Tərpənmədi; amma Şimrin imamın qanlı bədəni yanında dizləri üstə oturub başını bədənindən ayırdığını, sonra əlində yuxarı qaldırdığını görəndə sanki bütün dünyanı yerində donduran səslə qışqırdı. Sanki dünya bir anlığa hərəkətsiz qaldı. Düşmən qoşunu lal heykəllər kimi dayanmış, hətta atları da daşa dönmüşdü. Hamı daşlaşıb tamaşa edirdi; ondan və imamın başını yerə qoyub Hüseyn qanına bələşmiş qılıncla, iri addımlarla ona yaxınlaşan Şimrdən başqa. O əyilib yerdən çox da böyük olmayan bir daş parçası götürdü. Şimr yaxınlaşanda çirkin üzündən vurmaq istəyirdi. Daşın zərbəsini gücləndirmək üçün yarımdövrə vuranda isə güclü bir əl saçından yapışıb onu yuxarı dartdı; sonra bir az daha yuxarı. Ayaq barmaqlarının ucunda dayanmışdı. Şimr qılıncını qaldırıb əyri şəkildə onun boynuna endirdi. Qışqırıb yuxudan oyandı.

Başı Şimrin əllərindəydi, anasının əlləri isə çiyinlərində:

- Nə olub, oğlum, niyə qışqırdın? Yenə pis yuxu görürdün?

Anasının əllərindən tutdu, sinəsinin üstünə qoyub dedi:

- Yox, ana, bu dəfə yaxşı yuxu gördüm.

# 1

Gözlərini gözümə dikdi, sonra məni diqqətlə başdan-ayağa süzdü. Əynimdəki cins şalvara baxanda düşündüm ki, bu saat mız qoyacaq. Bu adamların belə geyimi sevmədiklərini bilsəm də, Hüseynə qulaq asmayıb bu görkəmlə getdim və adını bilmədiyim ortayaşlı müdirin qarşısında dayandım. Eşitmişdim ki, pis kişi deyil və mədəni-tərbiyəvi işlər üçün adam axtarır. O gün ad yazdıranda isə çox ciddi görünür, mənim orada işləməyimə icazə verənə oxşamırdı; üstəlik, o görkəmim və yeniyetmə ədalarımla. Bilirdim ki, onların qaydaları çox da mənə görə deyil.

- Ağa Möhsün Hücəci; düzdür?

Başımı yellətdim; yəni ki, bəli.

- Bu boyda başını boynun üstə tərpədincə o balaca dilini azca tərpətsəydin, yaxşı olmazdı?! Başın heyif deyil?! – deyə gülümsədi, sonra əlavə etdi: - Doğum tarixi!

- 12 İyul 1991.

Vərəqə yazdı, sonra atamın adını və evimizin ünvanını soruşdu, axırda da dedi:

- Sabahdan gələ bilərsən.

İnana bilmirdim; bu asanlığa iş tapmışdım. Getmək istəyəndə soruşdu:

- Nə bacarırsan?

- Mən... şey... elektrik işi bacarıram; amma bir az. Peşə məktəbində Elektrik ixtisasında oxuyuram.

- Yox, - deyə gülüb başını yellədi, - məqsədim mədəni-tərbiyəvi işlərdir; bizim fəaliyyətimizə yarayan işlər.

Fəaliyyətlərinə nəyin yarayıb nəyin yaramadığını bilmirdim. Dedim:

- Səsim pis deyil. Hərdən Quran oxuyuram; mərsiyə, Aşura ziyarətnaməsi... – bir az da böyütməkdən ötrü əlavə etdim: - Kitab da çox oxuyuram.

- Pis deyil, - deyə yenə başını yellədi. – Hələlik kitabxanada işləyərsən.

Qapıya doğru addımladığım yerdə məni çağırdı:

- Ağa Möhsün!

Dayandım, geri dönüb ona baxdım. Məni adımla çağırdığına görə xoşum gəldi.

- Can, hacı, - dedim.

- Güman ki, Ayətullah Hücəcinin nəvəsi olmalısan; adına məscid olan. Düzdür?

Başım dik halda böyük özünəinamla cavab verdim:

- Xeyr! O, atamın əmisi idi, Nəcəfabad Elm Hövzəsinin əsasını qoyan. Mənsə Ayətullah Sədrin və Ayətullah Höccətin tələbəsi olmuş Ayətullah Əbülqasim Hücəcinin nəvəsiyəm. Atamın bir əmisi oğlu Məhəmmədəli Hücəci də 1982-ci ildə Vəlfəcr-1 əməliyyatında şəhid olub. İyirmi bir yaşı varmış, indiki məndən bir az böyük.

Xoşum gəldi. Yaxşıca böyütmüşdüm bilsin ki, biz köklü, keçmişli və dindar ailəyik və insanların zahiri görkəminə görə mühakimə yürütmək olmaz.

Görünür, mühakiməsini etmişdi. Gözlərindəki işıqdan bilmək olurdu ki, bu seçiminə görə narahat olmamalıdır.

Ondan sonra hər gün peşə məktəbindən gəlib tələsik naharımı yeyir, kitabxanaya gedirdim. Günün o saatlarında hər yer boş olurdu, kitabxana isə qələbəlik və kitabla dolu. Kitablar adamı oturub oxumağa həvəsləndirirdi. Düzü, kitabxanada özümü yaxşı hiss edirdim; bir dünya mehriban dostu olan adam kimi. İçəridə Şəhid Kaziminin

böyük bor portreti vardı, görəndə yaxşı hisslər keçirirdim. Bu hisslər mənə deyirdi: “Möhsün, oxu, kitab oxu. Sən də bacararsan. Sən də Hacı Əhməd kimi yaxşı adam ola bilərsən. Allahın əziz bəndəsi olarsan və daha günah eləməzsən”.

O zaman yaxşı olmaq çoxlu pul sahibi olmaqla deyildi, yaxşı olmağı heç kim Ayfon telefonu, Əpl kompüteri və digər bu kimi şeylərə malik olmaqla bərabər tutmurdu. Ən azı, bizim çevrəmizdə belə deyildi.

Sevincək idim. Atamsa sanki sevinmirdi. Boş vaxtlarımda onun yanına bənnalığa getməyimi istəyirdi; onun üçün kərpic atım, ya da su və sementlə palçıq düzəldim və ləyənə töküb ona verim. O da yad bir fəhləyə verdiyi zəhməthaqqını mənə cibxərcliyi versin, özümə paltar və ya başqa bir şey alım və ondan istəməyə məcbur olmayım. Bir neçə dəfə fəhləlik etmişdim, nəticəsi də iki cins şalvardan, bir gün eynəyindən, Şəhid Kazimini və Şəhid Xərrazini ziyarət etmək üçün bir neçə dəfə İsfahana səfərdən, bir neçə dəfə limonlu Delsterlə yediyim fəlafel və bəndəri sendviçlərindən ibarət olmuşdu.

Bu sevinc çox çəkmədi. Bir dəfə Möhsün yanıma gəlmişdi; yaxın dostum Möhsün Himmətiha. Kitabxanada oturub yavaşca danışırdıq. Bir nəfər gəlib kitabxananın elan tablosuna bir kağız yapışdırıb getdi. Biz əhəmiyyət vermədik. Kitabxananın müdiri məni səslədi:

- Ağa Hücəci, gör nə yazıblar.

Tabloya yaxınlaşıb elanı oxudum, qaşqabaqlı halda qayıdıb Möhsünün qarşısındakı stulumda oturdum, üzümü ona tutub dedim:

- Yazılıb ki, şənbə günündən din və etiqad dərsləri başlayır.

- Hə, bu dərslər siz gənclər üçündür; gedin, pis deyil.

- Hə, hacı, - üzünə baxmadan dedim, - beynimizi yaxşıca yumaq üçündür.

- Nə beyin yuması, a kişi?! Üç-dörd yaxşı söz öyrədəcəklər, həm dünyanıza yarayacaq, həm axirətinizə.

Cavab verməyib üzünə baxdım. Gözlərini qıyıb baş, göz və qaşlarını elə tərpətdi ki, yəni nə olub, niyə dilxorsan?

Səsimi alçaltmadan dedim:

- Birinci gün sənə demədim ki, burda beynini yuyacaq adam axtarırlar?! Din və etiqad dərsləri bəhanədir.

- Sən nə danışırsan, Möhsün?! Bu dərslərdə mən də iştirak etmişəm. Beyin yumaq nədir?! Bir-iki dəfə get, özün görərsən. Xoşun gəlməsə, daha getməzsən; məcbur deyil ki, könüllüdür.

- Sən bilirsən ki, mən o partiyanın-bu partiyanın adamı deyiləm. Mən həzrət ağamın ardıcılıyam. Bunlarsa yalnız öz cinahlarının fikirlərini adamın beyninə yeritmək istəyirlər. Mən mədəni-tərbiyəvi işləri çox sevməsəydim, ayağımı bura qoymazdım.

- Sən yanlış düşünürsən, dost. Düşüncə elə bir şey deyil ki, zorla kiməsə versinlər. İkimiz də gedərik dərsə, görək nə deyirlər.

Getdik, özü də necə! Mikroskop altındakı bir mikroba necə baxırlarsa, mənə də elə baxırdılar. Ayaqqabım laklı idi, şalvarım mavi cins. Üzüm hamar idi, dodağımın altında isə bir topa saqqal qara xal kimi görünürdü. Saçım da uzanıb çiyinlərimə tökülmüşdü. Onlardan tam fərqli biri idim. Özümü yaxşı hiss etmir, etiqad dərsinə getmək istəmirdim.

Dərsdən sonra Möhsün məndən əl çəkmədi:

- Sənə nə olub? Niyə üz-gözündən zəhrimar tökülür?

- Bilmirəm, nədənsə özümü yaxşı hiss etmirəm, elə bilirəm ki, dərsdə digər uşaqların yanında yöndəmsiz yamaq kimiyəm.

- Yaxşı ki, özün bilirsən. İndi ki hizbullahçıların görkəmini gördün, öz görkəminə də bir nəzər sal, səbəbini anlayarsan.

- Dindarlıq adamın başındadır, ürəyindədir, dar və ya cins şalvarında deyil; saqqalda və ya saç modelində də deyil. Biri köynəyini şalvarının içinə salır, biri üstünə çıxarır; bu ki heç nəyə dəlil deyil. Bunlar boşuna mız qoyurlar, insanlara yalnız zahiri görkəmlərinə görə qiymət verirlər.

- Mənim kiminsə qiyməti ilə işim yoxdur. Sənə də paltarına, saqqalına və ya saçına görə qiymət vermirəm. Ancaq deyirəm ki, cəmiyyətin normalarına da fikir verməliyik. Hər mühit bir cürdür. Adam üzünü dibindən qırxıb ağ köynək geysə və qırmızı qalstuk taxsa, elə də gəlib İmam Hüseyn (ə) rövzəsi oxunan məclisdə otursa, daha digərlərinin ona baxmamasını da gözləyə bilməz.

- Bu, əlbəttə ki, olmaz. Mən nə qırmızı qalstuk taxmışam, nə də rövzə məclisində oturmuşam. Bura sinifdir, hamımız nəsə öyrənməyə gəlmişik, niyə bir-birimizin geyiminə, görkəminə qarışmalıyıq?!

- Yaxşı, yaxşı, qalx, gedək. Bəlkə, Allah istədi, sonradan başa düşdün ki, bir çevrədə geyim və görkəm də önəmlidir.

Möhsünün bu sözüylə razılaşa bilmirdim, digərlərinin boylanıb mənim şəxsi işlərimə qarışmalarını istəmirdim.

# 2

Novruz bayramına az qalırdı. Məktəblərdə seyrəklik idi. “Nur yolçuları” ekskursiyasına getməkdən söz düşəndə çantamdan qabaq ürəyim hazır idi. Mənim günahım deyildi, müqəddəs müdafiə barədə o qədər kitab oxumuş, şəkil görmüşdüm ki! Otağımın divarları şəhid şəkilləri, çəfiyə şalı, döyüşçü nişanı, güllə və boş patronla doluydu. Şəkillərin başında atamın Şəhid Kazimi və Şəhid Xərrazi ilə torpaq sipərin üstündə çəkilmiş şəkli dururdu. Üçü də eyni şəhərdən və bəlkə də, eyni yaşdaydılar. Bir vaxtlar hamısının birlikdə düşmənə qarşı vuruşduqları yerə getmək üçün ürəyimin bütün telləri əsirdi.

Köhnə və yaxın dostlar birlikdəydik: mən, Mehdi və Möhsün. Avtobus da köhnəydi, amma yaxın dost deyildi. Qoca sürücü tez-tez siqaret çəkir, hövsələsiz görünürdü. Mehdi ilə mən sürücünün arxasında oturduq. Sağollaşmalar qurtarandan, səs-küy yatandan və günəş qüruba doğru gedəndən sonra Mehdi dedi: “Möhsün, oxu, vaxtdır”.

Vaxtı olmasaydı da oxuyacaqdım. Sərnişin avtobusunda deyildik ki, çatana qədər adam balası kimi sakit oturaq. Ayağa qalxıb ortada dayandım. Əvvəl hamıya salavat dedizdirdim. Hamı boylanırdı ki, görsünlər nə deyirəm. Sağ əlimi qaldırıb oxumağa başladım:

Nur yolçularının ağızlarında dua var,
Kərbəlanı görməyə böyük sevda var.

Nur yolçuları yaxşıların zəvvarlarıdır,
Şəhidlərin həmdəmi, yoldaşlarıdır.

Öz imamları ilə can əhdi bağlamışlar:
Son ana qədər onun yolundadırlar!

Nur yolçuları vəli köməkçiləridir,
Sona qədər Əli dəstəkçiləridir.

Qəmli və yorğun halda "ya Hüseyn" deyək,
Məzlumlar ağasını biz yad eyləyək.

Ey məktəb və Quran şəhidi,
Susuz mövla, din-iman şəhidi!

Fitnə xəncərinə qurban gedən şəxs,
Başı susuz halda bədəndən kəsilən şəxs!

Bu şeiri əzbərləmək üçün çox əziyyət çəkmişdim. Axşam güzgü qabağında dayanıb son dəfə məşq eləyəndə bacım Zöhrə məni yamsılayır, çox da yaxşı olmayan səsimi ələ salırdı. Bir neçə dəfə oxumağı dayandırıb başına qışqırdım, amma əl çəkmədi. Axırda anam onu susdurub dedi: "Nə işin var, Zöhrə?! Gül oğlum sabah səfərə gedir, məddah olub, qoy işini görsün!"

Artıq işimi görmüşdüm. Oturacaqda oturub gözlərimi sonunda günəşin qürub etdiyi yola dikdim. Qızartısı göyə, yola və arabir aynadan mənə baxan sürücünün üzünə

səpilmişdi. Öz aləmindəydi, görünür, bizim halımızdan zövq almırdı.

- Qardaş, az idi, yenə oxu, - deyə uşaqların biri avtobusun arxasından qışqırdı.

- İndi azan veriləcək, namaz vaxtıdır. Namazdan sonra! - dönüb üzünə baxmadan cavab verdim, sonra sürücüyə dedim: – Qardaş, radionu qoşursan, azanın səsini eşidək?

Sürücü köməkçisinə dedi:

- Bir çay süz o termosdan!

Sonra çayını alıb önündəki stəkan yerinə qoydu. Mənə məhəl qoymadı. Bu dəfə Mehdi sürücüyə tərəf əyilib daha bərkdən radionu qoşmasını söylədi. O isə qoşmayıb dedi:

- Nə xəbərdir axı! Fərz edin azanı verdilər, sonra nə olacaq?

- Məlumdur, qardaş; sonra namaz üçün dayanacaqsan.

- Bu bərəhut çölündə dayanmaq olar?! – güzgüdən gözlərini mənə zilləyib dedi. – Gərək dəstəmaz almağa su və tualet olsun, ya yox?

- Siz ondan ötrü narahat olmayın, biz hamımız dəstəmaz almışıq. Elə burada yolun kənarında, otların üstündə cərgəyə düzüləcəyik.

Heç elə bil sürücüylə danışmırdıq. Gözləri yoldaydı, əlləri də sükanda. Dayanmadan sürürdü, saxlamaq fikri yox idi. Ona doğru əyilib əlimi çiyninə qoydum:

- Ey, əmi, namaz vaxtıdır, nə vaxt dayanacaqsan?

Gözünü yoldan çəkmədən cavab verdi:

- Bir saatdan sonra yolüstü restorana çatacağıq; həm namaz üçün, həm də yemək və tualet üçün.

- Bir saata?! Bir saata ilk vaxtın savabı gedər.

Sürücü yenə cavab vermədi. Mehdi qolumdan tutub özünə sarı dartdı və dedi:

- Mübahisə eləmə, qoy avtobusunu sürsün.

- Ay kişi, ilk vaxtda namazı bu qədər tövsiyə ediblər! Heç nə başa düşmür!

- Eybi yox, bir dəfəylə heç nə olmaz.

Tərsliyim tutdu:

- Bu qədər deyirlər ki, namazı ilk vaxtda qılmağa qarşı səhlənkarlıq etməyin, sənsə bunlar kimi...

- Deyilən səhlənkarlıq namazı yüngül saymaqdır, - sözümü kəsib dedi, - vaxtı olan kimi qılmaq deyil. Min cür səbəbə görə namazı ilk vaxtda qılmaq mümkün olmaya bilər. İndi bu şəraitdə namaz üçün dayanmaq olmaz.

Daha heç nə demədim. Mən, bəlkə də, yalnız özümü düşünürdüm; dəstəmazlı idim və namaz qıla bilərdim. Allah bilir, bu qədər adamdan neçəsinin dəstəmazı yoxdu, bu bərəhut çölündə də dəstəmaz almağa su tapılmazdı. Əlimdə deyildi, bu, özümə verdiyim bir sözlə bağlı idi: namazı ilk vaxtda qılmaq.

- Aydın oldu?

Mehdi idi, boynunu mənə sarı əymişdi, təbəssümü mənalı, baxışı sual doluydu.

- Bəli, haqlısan. Aydın oldu, - dedim.

# 3

Heç yaxşı deyildim. Bir növ pərişanlıqdı; puçluq hissi, həyata və dünyapərəstliyə bədbinlik. Özümdən acığım gəlirdi. Orada, Şələmçədə dünya bizimkindən necə də fərqli idi!

Avtobusdan enən kimi, ayağımızı yerə qoyan kimi hər şey fərqləndi. Fərqi hiss etmək olurdu. Hətta ayaqlarımın altındakı torpaq da üzərində gəzdiyim digər torpaqlar kimi deyildi. Orada ayaq torpağın üstündə özünü günahkar hiss edirdi sanki. Addım atmaq istəmirdim. Yerimdə dayanıb qaldım. Möhsünlə Mehdi getdikləri bir neçə addımlıq yolu geri qayıdıb qarşımda dayandılar.

- Nə olub, Möhsün? – Möhsün soruşdu. – Niyə halsızsan? Gəl də bəs!

Ayaqlarım yerə yapışmışdı, bədənim ağırlaşıb qurumuşdu, yerindən tərpənmirdi. Bu dəfə Mehdi qolumdan tutdu, gözlərini gözümə dikib:

- Hardasan, Möhsün? – deyə soruşdu, sonra qarşımdakı bərəhuta, hər qarışından güllə səsi gələn düzənliyə birləşmiş baxışlarımı izlədi. Məni silkələyəndə isə baxışlarımın izi qırılıb yol gedən bəzi yalın ayaqların üstünə düşdü. Ayaqyalın? Dərhal ayaqqabılarımı çıxarıb qoltuğuma vurdum, Möhsünlə Mehdinin önündən Şələmçə xatirəsi məscidinə tərəf yola düşdüm. Yer daha mənə və yalın ayaqlarıma yad deyildi.

Günortaya qədər əvvəlcə əzadarlıq etdik, sinə vurduq, ağladıq, Şələmçənin naməlum şəhidlərinin məzar daşlarını öpdük, sonra ətrafda gəzişdik; Şələmçə çöllərində, bir zamanlar müdafiə, döyüş və şəhadət yeri olmuş kanalın kənarında. Allah bilir ki, hansı naməlum böyüklər bu

kanalda vuruşmuşdur o günlərdə. Bu günlərdə isə səsucaldanların köməyi ilə güllənin yalnız səsi və hərbi marş kanalı doldurur.

Kanalın kənarında oturduq. Şəkil və filmlərdə görmüşdüm ki, o zaman döyüşçülər kanalın yoxuşunda tirlənirmişlər. Mehdi ilə ikimiz idik. Möhsün dəstəmaz almağa getmişdi. Əhvalım yaxşı ilə pis arasında gedib-gəlirdi. Sinə vurub ağlayandan, o eşq və haldan sonra bir az sakitləşməli idim; amma sakitləşməmişdim. Şələmçə barədə bildiklərim məndən əl çəkmirdi. Bir ovuc torpaq götürüb Mehdiyə sarı uzatdım və dedim:

- Nə torpaqdır bu! Kaş bu torpağın dili olaydı, nələrə şahid olduğunu, uşaqların nə qədər ətlərinin buna qarışdığını, üzərinə nə qədər qan töküldüyünü deyəydi! Özü də kimlərin qanı: Şəhid Hüseyn Xərrazinin, Şəhid Kəlhürün, Dəqayiqinin və yüzlərlə digər adamın. Allah bilir, öz Şəhid Kazimimiz bu torpağın üstündə nə qədər yeriyib; Şələmçənin altı ildən sonra azad edildiyi, həm də Xərrazinin qanad çalıb arzusuna çatdığı Kərbəla-5 əməliyyatında. Kaş zamanı geriyə, o illərə, müharibə dövrünə qaytarmaq və parolu "Ya Zəhra" olan Kərbəla-5 əməliyyatını görmək olaydı!..

Kövrəlib davam edə bilmədim. Şələmçə barədə bütün bildiklərimi söyləmək istəyirdim. Ekskursiyaya gəlməzdən qabaq Şələmçə, onunla bağlı səkkiz əməliyyat və bölgənin şəhidləri barədə bir neçə kitab oxumuşdum. Bilmək istəyirdim ki, Şələmçə haradır və mən hansı torpağa ayaq basmaq istəyirəm.

Mehdinin səsini eşidib özümə gəldim:

- Boş ver, Möhsün, nəydisə keçdi. İndi Şələmçədən yalnız xatirə qalıb. Onların hamısı gedib; ya o dünyaya gediblər, ya da bu dünyada hamı kimi çabalayırlar, - dedi,

sonra köks ötürüb əlavə etdi: - Ancaq bilmirəm ki, biz o günlərdə olsaydıq, nə edərdik; cəbhəyə gələrdik, yoxsa dərsdən, partadan yapışardıq?

- Səni bilmirəm, amma mən mütləq gedərdim cəbhəyə. Bəlkə də, şəhid olardım.

- Çox da əmin olma, Möhsün can, - deyə gülümsədi. – Can vermək o qədər sadə deyil. Çox çətindir can vermək.

Sakit qalıb Mehdinin bu sözü barədə düşünməyə başladım. Dəfələrlə arzu etmişdim ki, kaş mən də Kərbəla səhrasında İmam Hüseynin (ə) dostlarının yanında olaydım, vuruşaydım və can nədir, başımı verəydim! Başım nizələrə taxılaydı, onu Şama aparaydılar; İmam Hüseynin (ə) başının yanında. Yezidin sarayına lərzə salaydım. Amma, bəlkə də, arzu ilə əməl arasında məsafə çoxdur.

Mehdi dedi:

- Bizim də cəbhəyə gedib-getməməyimiz əməllərimizin ixlasına bağlı olardı. Baxmaq lazımdır ki, indi sözlə əməlimiz arasında nə qədər fərq var, öz malımızdan keçməyə, Allah yolunda fədakarlıq etməyə, maddi yardım etməyə, zülm etməməyə, həyatda mömin olmağa nə qədər hazırıq; gözlərimiz camaatın namusuna baxmasın, zavallı və problemli insanlara kömək edək və din yolunda ixlaslı olduğumuzu göstərən onlarla belə məsələ. Mən ki özüm haqda şübhəliyəm, amma səni deyə bilmərəm.

Mənə baxıb gülümsədi. Dedim:

- Nə gözəl danışdın, Mehdi! Mən bu sözləri çox eşitmişdim; məsciddə, moizədə, dini dərslərdə. Amma indi Şələmçədə səndən eşidəndə çox ürəyimə yatdı.

Üzündəki eyni təbəssümlə cavab verdi:

- Bəli də, biz buyuq!

Hələ sözlərinin təsirindən çıxmamış mənə dedi:

- Elə indidən başlaya bilərik.

- Nəyə?

- Özümüzü islah etməyə. Gəl bir az özümüz haqda düşünək. Bütün həyatımız olub dərs, iş, oyun, idman, yemək və yatmaq. İndi bir qədər özümüzü islah etmək, özümüzdən muğayat olmaq vaxtıdır.

- Mən razı! Elə indi, Şəhid Xərrazinin, Hacı Əhmədin ətri gələn Şələmçədə, burada söz verək ki, bir-birimizə xatırlatma edəcəyik. Hansımız dini məsələlərdə ayağını əyri atsa, o birimiz ona xatırlatsın, hətta adam içində olsa da.

- Adam içində dilxorluq olar amma; utandırar, rüsvay edər.

- Vacib deyil ki, car çəkək, hamı bilsin. Mən səhvə yol versəm, sən o əyri barmağını mənə tərəf uzat.

Mehdinin əl barmaqlarından biri futbolda sınmış, həkimə getmədiyinə görə əyri qalmışdı.

- Bəs sən? Sən hansı əyri orqanınla mənə xəbərdarlıq edəcəksən?

Güldü. Mən də gülə-gülə:

- Mən də həmin barmağımı əyib sənə göstərəcəm, biləsən ki, vəziyyətin acınacaqlıdır və diqqətini toplayasan; belə, - dedim və çeçələ barmağımı əyib ona göstərdim.

Bu minvalla əyri barmaqlarımız uzun müddət bizim əyri davranışlarımızı düzəltdi.

# 4

Bir-iki il də ildırım sürətilə ötdü. Amma pis keçmədi; boşuna, ziyanlı və qəflət içində keçmədi, məktəbdə, məsciddə, əza dəstəsində və cihad düşərgələrində keçdi. Cihad düşərgələri demişkən, Allah bu düşərgələri təşkil edib kasıb kəndlilərdə gələcəyə ümid yaradanın atasına rəhmət eləsin! Onlar bununla inanırlar ki, İslam inqilabından illər ötməsinə baxmayaraq, hökumət onların hamısına kömək edə bilməsə də, camaat özü onlara kömək edir, məktəbləri, məscidləri, tibb mərkəzləri olur, zəif və titrək evləri yenidən tikilir.

İlk dəfə cihad düşərgəsi barədə eşidib getməyə hazırlaşanda çox da ürəyimə yatmamışdı. Fikirləşirdim ki, fəhləliyə gedirik; bir neçə bədbəxt kəndlinin uçulub-dağılmış evini abad edib gələcəyik. Düşünürdüm ki, bir qrup cavan iş-gücümüzdən olub kənddə bənnalıq etməyimiz nə deməkdir axı; atam kimi bənna və fəhlələri göndərək, gedib bir kəndi abadlaşdırsınlar, özləri də üçdən-beşdən qazansınlar. Lakin yanlış düşünürdüm; cihad düşərgəsi inşaatdan, bənnalıqdan çox təsirli idi.

Köhnə bir mikroavtobusla gedib bir yerə çatdıq. Bizi heç kim qarşılamadı. Heç belə yarıyıxıq evlərdə kiminsə yaşadığını da güman etmirdim. Kəndin balaca dairəsindəki bir neçə evi başdan-ayağa süzdüm; divarlarında bir dənə salamat yer yox idi. İnana bilmirdim; yəni belə evlərdə yaşamaq olar?! Yəni bu qədər kasıblıq və məhrumluq varmış, biz görməmişik?! “Bəs bura niyə belə sakitlikdir? Bəs əhali hanı?” – deyə öz-özümə düşündüm.

Çox tezliklə öyrəndim ki, kənd əhalisinin başı öz işlərinə qarışıb, çoxu da kənddən kənardakı əkin sahələrində və bağlarında işləyirlər.

Kəndin balaca dairəsində bir neçə balaca uşaq bizi dövrəyə aldı. Yıpranmış və tozlu paltarları, sual dolu baxışları vardı. Birinin yanağını tutub yavaşca dartdım. Dörd-beş yaşı olardı, nadinc tərzdə baxırdı. Ayağıma təpik vurub qaçdı. O birilər də qaçdılar. Məni gülmək tutdu. Başlanğıc üçün pis deyildi! Fikirləşdim ki, bu cihad düşərgəsində Allah axırımızı xeyir eləsin!

Qoca kişi peyda olana qədər bir müddət keçdi. Yaxınlaşıb hamımızla görüşdü. Kənd bələdiyyəsinin sədri olan Hişmətpur soyadlı bu şəxsin yaşı, yəqin ki, səksəni keçmiş olardı. Ancaq yox, sonra bildik ki, yazığın cəmi altmış beş yaşı var. Arıq, qısaboy idi, beli əyilmişdi. Dedi ki, hər şey hazırdır. Onu öncədən tanıyan düşərgə müdirimiz Rəsul qum və sement gətirəcək Vanet yük avtomobilini soruşdu. Məlum oldu ki, hər şey dünəndən hazırdır, çatışmayan da təkcə biz imişik.

Təmir edəcəyimiz ev iki nəvəsi ilə yaşayan qoca bir qadının idi. Oğlu ilə gəlini motosikletdən yıxılıb ölmüşdülər. Nəvələr altı və səkkiz yaşlı iki arıq, qarabuğdayı və güman ki, xəstə qız idi. Qoca qadın namaz çadrasına paltar boğçası kimi bükülmüş, təkcə arıq və qırışlı üzü bayırda qalmışdı.

Evi boşaltmışdılar. Bir otaqdan, otağın önündə balaca eyvandan, eyvanın küncündə də mətbəx əvəzi bir anbardan ibarət idi. Daş divarlar təxminən salamat idi, tavansa uçulub yenidən tikilməli idi. İşə başlayıb tavanı günortaya qədər yerə qoyduq. Uşaqların üçü öncədən həyətə gətirdikləri taxtalarla işləyirdi, dördü də kəndin digər tərəfində məktəbin divarlarını təmir edirdi.

Günortaya qədər dayanmadan işlədik. Yorulmuş, tərləmişdim. Rəsul bizə “azad” komandası verdi. Toz-torpaqlı əl-üzümüzü yumaq üçün həyətin ortasında yerləşən, hovuzcuq vasitəsilə suyu küçəyə axıdılan krana doğru hücum çəkdik. Dəstəmaz almaq üçün qollarımı çırmadım. Altıyaşlı qız əlində təzə qırmızı dəsmal gəlib qarşımda dayandı. Ona baxıb gülümsədim. Gözlərini gözümə dikib baxır, heç bir reaksiya vermirdi. Ona sarı əyilib soruşdum:

- Adın nədir, qəşəng qız?

Başını aşağı salıb susdu. Barmağımla çənəsini qaldırdım.

- Bilirsən mənim adım nədir? Mənim adım Möhsündür. Bəs sənin adın nədir?

- Zeynəb, - deyə yavaşca və astadan dedi.

Qarşısında dizi üstə oturdum.

- Zeynəb! Nə qəşəng addır!

Necə də arıqdı! Üzü də çirkli idi. Sanki uzun müddət idi hamama getməmişdi. Hamama? Hansı hamama? Mən burada hamam görmədim axı. Bəs bunlar harada yuyunurlar? Yəqin, elə burada, bu kranın yanında; əvvəllər də, yaxınlıqda çay və ya bulaq varsa, orada.

Alnından öpdüm. Kövrəlmişdim. Bu camaatın yoxsulluğuna üzülürdüm.

Tez dəstəmaz alıb kəndin köhnə bir binanın böyük zalından ibarət məscidinə getdik. Bəlkə, bir zamanlar hansısa mülkədarın, ya da mülkədar oğlunun yaşayış yeri olmuş, indi isə məscidə, daha doğrusu, namazxanaya çevrilmişdi. Hişmətpurla üst-başı tozlu bir neçə kişi də namaza gəlmişdi; iki-üç qoca arvad və bir neçə uşaq da vardı. Cərgəyə düzüləndən sonra pişnamazlıq üstə komplimentlər başladı. Rəsul əvvəldən kənara çəkilib son

cərgə olan ikinci cərgədə dayandı. Mehdi qolumdan tutub dedi ki, Möhsün, keç irəli. Mərkəzdə və "Nur yolçuları" ekskursiyasında bir neçə dəfə belə eləmişdi. Qolları çırmanmış halda içəri girən Hişmətpur gözlərimə sataşdı. Ona yaxınlaşıb bazusunun altından tutdum və öndə rəngi solmuş canamazın üstündə dayandırıb dedim:

- Hacı ağa, buyurun.

O da təvazökarlığa başlayıb cavanlardan birinin önə keçməsini istədi, amma heç kim razılaşmadı və dayanıb namaz qılmağa başladı. Namazdan sonra orada günorta yeməyimizi yedik. Heç kim istirahət barədə düşünmürdü. Yenə qoca qadının evinə sarı yola düşdük. Bu dəfə nəvələri ilə birlikdə həyətin ortasında dayanıb bizim üçün dua edirdi.

Gecə isə çox gözəl idi; ucqar bir kənddə mənəvi bir cümə axşamı. Kəndin bütün kişi və qadınları namaz üçün məscidə və həyətinə toplaşmışdılar, özgə saymadıqları adamlara da minnətdarlıqla baxırdılar. Axşam namazlarından sonra Rəsulun təklifi ilə önə keçib Kumeyl duasını oxumağa başladım. Səsim pis deyildi, amma mikrofonsuz həzz vermirdi; ən azı özümə.

Duadan sonra müxtəlif parça və sellofanlarla həyətdə süfrə açdılar, onu da yalnız kişilərə. Hamımız süfrə başına keçdik. Əriştə aşına bənzər çox dadlı və yəqin ki, yerli mətbəxlərinə aid bir xörək idi.

Üç gün cihad düşərgəsində qalıb bir neçə evi təmir etdik. Məscidin içinin divarlarını əhəng və gəclə ağartdıq. Hələ iş çox idi, amma getməli idik. Bəlkə də, o kəndə bir də getməyimiz lazım olacaqdı.

Axırıncı gün Rəsul bizi toplayıb yaşıllıq və çəmən dolu bir təpəyə apardı. Hamımız təpənin döşündə üzü Rəsula sarı oturduq. Hamımıza təşəkkür edəndən sonra xahiş etdi

ki, növbə ilə bir-bir yanında dayanıb bu düşərgə barədə fikrimizi bildirək. Uşaqlar boyun qaçırırdılar. Kimin birinci danışmasına dair yenə təvazökarlıqlar başladı. Sonra Rəsul bizi bir-bir çağırıb dedi ki, bir və ya bir neçə cümlə qədərincə olsa da, danışıb təəssüratlarımızı bölüşək.

Mən onun çağırdığı altıncı adam oldum. Bu müddətdə danışan uşaqları dinləmək yerinə nə danışacağımı fikirləşmişdim. Gedib Rəsulun yanında dayandım. Uşaqların arasına pıçapıç düşdü və üzlərində dəcəl təbəssüm yarandı. Bəlkə də, fikirləşirmişlər ki, ciddi sözlərimi söyləməyəcək, bu bir neçə gündə olduğu kimi, vaxtı zarafat və gülüşlə keçirəcəyəm. Lakin mənim sözlərim ciddi idi. Allahın adı, imam və şəhidlərin xatirəsi ilə başladım:

- Bu düşərgənin iki xüsusiyyəti vardı: Biri bu yoxsul, amma səmimi və mehriban kənd camaatı üçün idi ki, xarabalıqlarının kiçik bir qismi abadlaşdı; biri də yavaş-yavaş laqeydlik qınından çıxan özümüz üçün idi. Bizim ehtiyacımız var ki, camaatın yanında olaq, camaatla olaq, özü də kasıb camaatla, bizim köməyimizə nə qədər ehtiyaclı olduqlarını gördüyümüz camaatla. Biz xalqın bütün çatışmazlıqlarını mütləq hökumətin aradan qaldırmalı olduğunu düşünməməliyik. Xarabalıqları abadlaşdırmaq və ehtiyaclı insanlara kömək etmək hökumətin borcudur. Bəs biz xalq necə? Biz də əlimizi əlimizin üstünə qoyub baxa bilmərik ki, görək hökumət nə edir, nə etmir. Bir-birimizə kömək etmək, maddi yardım göstərmək, ehtiyaclılara əl tutmaq bizim də şəriət borcumuzdur. Mən bu düşərgədə bütün vücudumla inandım ki, heç nə yardım etməkdən ləzzətli deyil. Bizim yardım etməyə pulumuz yox idi, amma vaxtımız vardı, qol gücümüz vardı, iş bacarırdıq. Bunun özü də Allah yolunda

yardımdır. Allaha şükür ki, cihad düşərgəsinə gəlməyi bizə nəsib etdi. Allaha şükür ki, bu camaata verməyə pulumuz olmasa da, işimizlə üzlərində təbəssüm yaratdıq, özümüzdən razı etdik. Mənimçün bu düşərgənin ən yaxşı anlarından biri axşamlar balaca uşaqları başıma toplayıb Quran oxumağı öyrətməyim idi. Uşaqlar kənd ləhcələri ilə Tövhid surəsini oxuyanda necə həzz alırdılar! Ümidvaram Allah hamımızdan razı qalar və bizə daha çox xidmət səadəti nəsib edər, inşallah. Məhəmməd və ali-Məhəmmədə salavat deyin!

Salavat səsi ucaldı, bir neçə nəfər əl çaldı və Rəsul çiynimə vurub dedi:

- Əla, Möhsün can! Bərəkallah! Gözəl dedin, düz dedin! Allah bizdən qəbul etsin və yenə xidmət səadəti nəsib etsin!

# 5

Nəhayət, Elektrik ixtisasında diplomumu aldım, yaydan işləyib pul qazanmağa başladım; qohum-qonşuya, dost-tanışa elektrik işləri görməkdən tutmuş daha çox sifariş qəbul etməkdən ötrü vizit kartı çıxartdırmağa qədər. Bu isə alınmadı, mənə çox da pul və inkişaf gətirmədi, heç cibxərcliyi həddində də olmadı.

Qəbul imtahanlarında iştirak edib Ələvicə Elm və Texnologiya Universitetinin Elektrik mühəndisliyi fakültəsinə qəbul oldum. Ələvicə Nəcəfabaddan çox da uzaqda deyildi, mikroavtobusla yarımsaatlıq yoldu. Əslində, ürəyim daha dərs oxumaq yox, daha çox, işləmək istəyirdi: günün birinci yarısını işləyib adını Palçıq işi qoyum, yəni dünya işi; axşamüstüdən gecənin yarısına qədər də işləyib adını Ürək işi qoyum.

O günlərdə hər iş görürdüm, amma ürəyim daha çox kitabla idi: sərgi, cümə namazı və məktəblərdə kitab satmaq. Çoxunu əvvəl özüm oxuyur, sonra da satmaq üçün özümü oda-suya vururdum. Camaata yaxşı məhsul təqdim etmək istəyirdim.

Bir gün Daniyalla cümə namazına gedib kitablarımızı məscidin çıxışının qarşı tərəfinə düzdük. Əvvəlki cümələrdə olduğu kimi, camaatı görəndə qışqırığa başladıq. Bir kitabı əlimizdə tutub reklam edirdik; digər səyyar satıcılar kimi. Əvvəllərdə bir az utanırdıq, sonra fikirləşdik ki, nə eybi var, kitab da bir məhsuldur, satmaq üçün öncə təqdimat lazımdır. Yaxşı satırdıq. Həmin gün mən qışqırıb reklam edirdim, Daniyal camaata verib pulunu alırdı. Birdən iki uniformalı məmur qarşımızda dayandı. Əsla düşünməzdik ki, bələdiyyə məmurları bizim

qarşımızı da kəsə bilərlər. Biz dəyərsiz məhsullar yox, kitab satırdıq. Əlbəttə, onlardan qorxmurduq. Kitab satışı elə şeydi ki, bələdiyyə qarşımızı almalı yox, bizə təşəkkür etməli idi. Digər səyyar satıcılar qaçmışdılar, bizsə yerimizdən tərpənməmişdik. Hətta kitabların birini onlara uzadıb dedim:

- Başqa bir tufan yoldadır. Maraqlı bir roman! Endirimlə cəmi 10 tümən.

Hər iki məmur heç nə demədən təxminən hücum çəkib kitabları masadan toplamağa başladılar. Birinin əlindən tutub dedim:

- Ey, əmi, bu kitablar satlıqdır... gərək pulunu verəsən...

Hər ikisi bir-birinə baxdı, sonra aralarından kök olan mənə baxıb təbəssümlə dedi:

- Ay bala, biz bələdiyyənin yola nəzarət məmurlarıyıq, kitablarınızı yığıb aparacağıq.

İstədim deyəm ki, siz qələt edirsiniz... amma Daniyal yavaşca və xoş dillə dedi:

- Bağışlayın, ağa, biz bu kitabları məscid tərəfindən düzmüşük, problem yoxdur.

Elə bilirdim ki, indi buraxıb gedərlər. Amma kök kişi utanmadan:

- Məscid olsun, ya da başqa bir yer; bizim üçün fərqi yoxdur. Sizin işiniz qeyri-qanunidir, - deyib bir neçə kitabı da qutuya atdı.

Qarşısında dayanıb dedim:

- Əziz insan, bələdiyyə məmurusunuz, yaxşı, olun... Sizə verilən tapşırığı yerinə yetirirsiniz, olsun... amma bu kitablar məscidindir və sizin onları aparmağa ixtiyarınız yoxdur.

Bu dəfə o biri kişi başını mənə doğru əyib utanmazcasına dedi:

- İndi sizin kitablarınızı aparıb bələdiyyənin anbarına atsaq, siz oğlanlar nə qələt edəcəksiniz?!

Az qala bir yumruq vurub ağzının cırığını bağlayacaqdım. Yaramaz elə danışırdı ki, sanki biz şəriətə zidd bir iş görürük. Kitab, özü də dəyərlərimizlə bağlı kitab satmaq bələdiyyənin mane olacağı bir iş deyildi.

- Əziz insan, əvvəla, düzgün danışın. Biz narkotik satmırıq ki, bizimlə belə danışırsınız. İkincisi, kitablara əl vurmayın, biz indi yığıb aparacağıq, bir də bu tərəfə gəlməyəcəyik, - deyə Daniyal qalmış kitabları yığmağa başladı.

Qarşısını alıb kitabları toplamasına mane olmaq istədim, amma bunu mənim yerimə kök məmur edib dedi:

- Olmaz, oğlan, biz kitabları aparacağıq!

Hər ikisi kitabları yığıb iki boş qutuya doldurdular, sonra da yük maşınlarının arxasına atdılar. İçim-içimi yeyirdi, onlara mane olmaq istəyirdim, amma Daniyal qoymadı. Biləyim əlindəydi, tez-tez deyirdi:

- İşin olmasın, Möhsün!

- Nə "işin olmasın"?! - hirslə dedim. – Günün günorta çağı kitablarımızı aparırlar. Məgər özbaşınalıqdır?!

Bilmirəm Daniyal niyə bu qədər soyuqqanlı və reaksiyasız olmuşdu. Özü heç nə eləmirdi, üstəlik, məni də qoymurdu. Artıq Daniyalla tək qalmışdım, yanımızda da kitabsız boş masa. Biləyimi əlindən çıxarıb bələdiyyənin yük maşınına doğru qaçdım. Daha heç kim önümü kəsmirdi. O qədər coşmuşdum ki, hündür bir sıçrayışla maşının arxasına qalxdım. Qutuları götürmək istəyəndə isə bir əl arxadan yaxamdan yapışıb dartdı, sonra da bir cücə kimi qollarımın altından tutub məni yerə atdı. Yıxıldım. Kök kişi idi. Div kimi qarşımda dayanıb hirslə dedi:

- Axırıncı dəfə olsun dövlət məmuruna qarşı çıxmağın!

Yan və dizlərim ağrıdı. Çətinliklə yerimdən qalxdım. Geri çəkilməməli idim. O, hansı haqla mənimlə belə rəftar edirdi?! Yumruğumu düyünləyib üstünə cummaq istəyəndə Daniyal arxadan yapışıb məni geri dartdı. Onun əlindən çıxmaq çabalarım da nəticəsiz qaldı. Hirslə başına qışqırıb dedim:

- Burax, Daniyal... burax məni...

Daniyal məni bir neçə metr kənara aparıb dedi:

- Sakitləş, Möhsün! Boşuna haray-həşir salma!

- Necə yəni, Daniyal?! Onlar bizim kitablarımızı apardılar, gərək geri alaq.

- Yaxşı, alarıq, - soyuqqanlılıqla cavab verdi. – Bircə sən danışma və heç nə eləmə.

- Geri alacağıq? Bəs necə? – təəccüblə soruşdum.

- Bax, Möhsün can, bunlar bələdiyyənin işçiləridir, bütün səyyar satıcıları yığışdırırlar, kitabla pambıq şəkər arasındakı fərqi də bilmirlər. Onlarla dalaşmaq düzgün deyil.

- Amma demədin ki, kitabları necə alacağıq...

- Heç kim anlamadan kitablar geri qayıdacaq. Görərsən.

Yük maşını hərəkətə başlamışdı, Daniyalsa kitabları almaqdan danışırdı.

- Ay kişi, kitabları apardılar, sənsə deyirsən ki...

- Min motosikletə, - deyə sözümü kəsdi. – Gərək izləyək.

İrəli bir addım atdı, motosikletə tərəf getmək istəyəndə biləyindən tutdum.

- İzləmək nədir, Daniyal?! Polis-polis oynamaq istəyirsən?

- Hoppan motosikletə, yolda deyərəm.

Motosikletin tərkinə oturdum və bələdiyyənin Vanet yük avtomobilinin ardınca yola düşdük. Başımı qulağına yaxınlaşdırıb soruşdum:

- Planın nədir?

- Bax, Möhsün, bələdiyyə işçiləri aldıqları məhsulları anbara aparırlar. Biz gərək təqib edib anbarlarının yerini öyrənək. Sonra da münasib bir vaxtda gedib kitablarımızı götürərik.

- Zarafat edirsən, Daniyal? Məgər kitabları götürmək halvadır?!

- Səbirli ol, görərsən.

Baş açmırdım, bilmirdim ki, planı tam olaraq nədir. Yük avtomobilinin ardınca düşüb şəhərdən çıxdıq. Vanet bir yola dönüb qədim karvansara kimi bir yerə girdi. Daniyal yolunu döndərib anbarın divarının kənarında motosikleti söndürdü.

- Nə edək? – yavaşca qulağına dedim. – Deyə bilərsən?

- Heç nə. Bunlar getsinlər, girək anbara, kitablarımızı götürək.

- Bu asanlığa?! Bəyəm kino çəkirsən, qardaş!

Heç nə demədi. Bir neçə dəqiqə gözlədik. Bələdiyyənin maşını küçəyə çıxdı və şəhərə gedən magistrala doğru yola düzəldi. Daniyal motosikleti işə salıb dedi:

- Bircə sən danışma. Sakit qal və bax.

Anbarın girişinə tərəf getdi, hay-hayı gedib vay-vayı qalmış dəmir qapının yanında dayandı. Motosikleti söndürmədən yerə endik. Qapı açıq idi. Həyətə girdik. Anbar bir tərəfində çox da böyük olmayan və güman ki, müsadirə olunmuş bütün tör-töküntünün saxlandığı tikilinin olduğu böyük bir həyətdən ibarətdi.

Köhnə bir taxta stulda bir qoca kişi oturmuşdu. Bizi görən kimi ayağa qalxıb bir neçə addım yaxınlaşdı. İkimiz

də salam verdik. Qoca dayanıb salamımızı alandan sonra soruşdu:

- Burda nə edirsiz, uşaqlar?

- Əmimizin maşını bu yaxında bataqlığa batıb. Dedik bəlkə, burda kömək etməyə bir-iki nəfər olar, - Daniyal dedi.

- Yox, bala, burda məndən başqa heç kim yoxdur. Bir az qabağa gedin, orda sellofan zavodu var, yəqin ki, fəhlələri də olar.

Daniyal mənə göz vurub:

- Gedək, dadaş, problem həll oldu, - dedi, bayıra çıxandan sonra isə əlavə etdi: - Anbarın arxasına keçirik, divardan hoppanıb yavaşca o gördüyün tikiliyə giririk, sonra da kitabları götürüb qaçırıq.

İndi planını başa düşdüm, buna baxmayaraq, yenə dedim:

- Gərək o qoca keşikçidən muğayat olaq.

- O, heç nə bilməyəcək, arxayın ol.

Daniyalın boyu məndən qısaydı, divara dırmaşa bilmədi. Əllərimi qarmaqvarı birləşdirdim, ayağını qoyub divara qalxdı, sonra əlimdən tutub mənə kömək etdi.

Bir neçə dəqiqədən sonra artıq iki kitab qutusunu motosikletin tərkinə bağlamışdıq və şəhərə doğru yol gedirdik. Qərara gəldik ki, bu haqda heç kimə bir söz deməyək.

Növbəti cümə günü yenə kitabları düzdük və bələdiyyənin həmin iki məmuru yenə peyda oldu və yenə kitablarımızı qutuya yığıb apardılar. Bu dəfə nə bir söz dedik, nə etiraz etdik. Bir saatdan sonra kitabları geri gətirdik.

Bu oyun bir neçə həftəydi davam edirdi: bələdiyyə kitablarımızı aparırdı, biz də həmin gün gətirirdik və heç

kimin xəbəri olmurdu. Nəhayət, bir dəfə məmurlar kitablarımızı toplayanda hacı ağanın bizə sarı gəldiyini gördüm. Daniyalın böyrünə vurub dedim:

- Ey, bax... hacı ağa...

Hacı yaxınlaşıb təəccüblə bizə baxdı. Məmurlar kitabları götürmüşdülər, getməyə hazırlaşırdılar. Hacı çevik addımlarla bizə yaxınlaşıb soruşdu:

- Burda nə olub? Kitabları niyə aparırlar?

Daniyalla birlikdə salam verdik, soyuqqanlılıqla “Allah qəbul eləsin” söylədik. Hacı salamımızın cavabını vermədən məmurlara sarı gedib dedi:

- Ağa, kitabları hara aparırsız?

Məmurlar ona fikir verməyib yük avtomobilinə tərəf getdilər. Hacının qolundan tutub dedim:

- Hacı, bir dəqiqə təşrif buyurun, izah edim.

Hacı hələ qaşqabaqlı idi, kitabları apardıqlarına görə dilxor olmuşdu.

- Bu nədir, uşaqlar? – dedi. – Dayanıb baxırsız, heç nə demirsiz... Axı bunlar beytülmal kitablarıdır.

- Hacı, bu, hər həftə gördükləri işdir, - dedim. – Əlbəttə, bunlar gələnə qədər biz kitablarımızın çoxunu satmışıq, problem yoxdur.

- Necə yəni problem yoxdur, ağa Möhsün? – deyə hacı narahat halda bildirdi. – Bu kitabların zərərini kim verəcək?

Daniyal təbəssümlə dilləndi:

- Zərər olmayacaq, hacı. Neçə həftədir bunlar gəlib kitablarımızı aparırlar, biz də bir saatdan sonra gedib gətiririk.

- Necə yəni? Necə gətirirsiz? – hacı təəccüblə baxıb soruşdu. – Onları geri almaq üçün nə qədər məktub

yazmalı, ora-bura qaçmalısız. Biz nə vaxt bələdiyyəyə məktub yazmışıq ki, mənim yadıma gəlmir?

Bütün əhvalatı danışdım. Hacı diqqətlə qulaq asandan sonra gülümsəyib yalnız bunu dedi:

- Bəs belə! Maraqlıdır!

- Hacı, indi icazənlə gedib kitabları gətirək, - dedim.

- Dayanın görüm, bəs bunlar demirlər ki, yığıb apardıqları kitablar hardadır? Yazıb eləmirlər?

- Hacı, bundan da nizam-intizamsız işləyirlər.

Bir qədər düşünüb dedi:

- Onlar üçün bir planım var. Siz gedin, kitabları gətirin, mən də sabah bələdiyyəyə məktub yazıb deyəcəyəm ki, kitablarımızı geri versinlər. Görək nə olacaq.

Ertəsi gün məktubu bələdiyyəyə apardıq, onlar da tapşırdılar ki, anbara gedib kitabları alaq. Ancaq nə qədər axtardılarsa, kitab tapmadılar. Bu dəfə biz iddiaçı olub onları bir neçə gün incitdik, sonra uzatmayıb əl çəkdik. Lakin hacı ağanın sifarişi ilə İslam İrşad Komitəsindən xüsusi kart alıb Nəcəfabadın kitab səfiri olduq, cümə namazından əlavə, hər bir toplantıda – avtobus və meydanlarda da heç bir maneçilik olmadan kitab sata bildik.

# 6

Özümdən razı deyildim. Həyatımın hansısa yerinin axsadığını hiss edirdim. Qıldığım namazdan və oxuduğum duadan çox da ləzzət almırdım. Mənəvi ləzzət barədə eşitdiyim, namaz qılanda, dua və ziyarətnamə oxuyanda hiss etməli olduğum bu deyildi. Bilirdim ki, hissim dayazdır, səthidir. Ürəyim istəyən qədər həzz vermirdi. Əmindim ki, işlərimdə nəsə nöqsan var, nə etməli olduğum barədə isə ağlıma bir şey gəlmirdi.

Qanadları kəsilmiş quş kimi çabalayırdım, narahat və qərarsız idim. Kimdənsə kömək almalı idim. Kimdən? Ürəyimi kimə açıb kömək istəyə bilərdim?

Bir cümə axşamı Kumeyl duasında beynimə bir fikir gəldi. "Niyə bu problemi Şəhid Kazimiyə demirəm? Məgər şəhidlər diri deyillər?! Məgər Şəhid Kazimi və digər böyük şəhidlər pak və ixlaslı olmayıblar?! Deməli, onlar mənə kömək edə bilərlər", – deyə öz-özümə düşündüm və tanıdığım bütün şəhidlərin arasından Hacı Əhməd Kazimiyə müraciət etdim.

Bir cümə günü naharımı yeyəndən sonra motosikletə minib İsfahana yola düzəldim. Yarım saat sürəndən sonra İsfahanın Təxti-fulad məzarlığına çatırdım – Şəhid Kaziminin döyüş yoldaşlarıyla birgə yatdığı yerə.

Təxti-fulad məzarlığında uyumuş onlarla şəhidin yanında bir-birinə yapışmış iki şəhidin qarşısında dayandım; Hacı Hüseyn Xərrazi ilə Hacı Əhməd Kaziminin. Hər iki məzarın üzərindəki şəkillər dodaqlarında təbəssüm mehriban şəkildə mənə baxırdılar. Hacı Əhmədin məzarının ayaq tərəfində oturub gözlərimi gözlərinə dikdim. Mən baxdıqca görüntü qaralırdı. O

qədər qaraldı ki, şəkli göz yaşlarımın köpükləri arxasında qaldı. Ağlamağa başladım. Doyunca göz yaşı tökəndən sonra Hacı Əhmədlə danışmağa başladım. Sanki cümlələrimin hər birini eşidirdi:

- Hacı Əhməd, çox darıxıram. Siz şəhidlərin süfrəsində oturmuşuq, amma sizə fikir vermirik. Hacı can, fikrimiz yayınıb, sizin gedişinizə və yoxluğunuza alışırıq. Nə pis dərddir alışmaq! Sanki nə üçün gəldiyimiz yadımızdan çıxıb. Sülh dövrümüz o qədər uzun oldu ki, hər şey yadımızdan çıxdı. Əməliyyat düşmənimiz həyatımızın asudə vaxtları olub, işimiz yalnız zarafat, uşaq oyunu; baxmayaraq ki, görkəmimiz adamaldadandır. Hamı fikirləşir ki, biz çox inqilabçıyıq, çox hizbullahçıyıq, düşmənə qarşı soyuq müharibə döyüşçüləriyik. Ancaq unutmuşuq ki, biz özümüzü aldadırıq, riyakarlıq edirik; riyakarıq, zahirimizlə batinimiz fərqlidir...

...Hacı Əhməd, yadındadır, müharibədən, şəhiddən və şəhadətdən heç nə bilməyən bir dəstə uşağı bəhanəsiz olaraq toplayıb cənuba döyüş bölgələrinə apardın, onlarla əhd-peyman bağladın ki, şəhidlərin amalına sadiq qalsınlar? Bağışla, Hacı Əhməd, biz o əhdnaməni itirdik. Biz özümüzü də itirmişik. Biz hər şeyi unutmuşuq. Şəhidlərə hansı sözləri verdiyimiz yenə yadımızdan çıxdı. Söz vermişdik ki, adam olaq – olmadıq; söz vermişdik ki, özümüzü islah edək – etmədik; söz vermişdik ki, məzlumlarınköməkçisi olaq – olmadıq. Dünyaya yapışdıq, bütün iş-gücümüz zarafatdan, gülüşdən, bekarlıqdan, avaralıqdan, boş-boş şeylərdən ibarət oldu. İndi, Hacı Əhməd, mən yorulmuşam özümdən, həyatımdan, dostlarımdan, işlərimdən. Universitet və təhsil də daha məni razı salmır. Nəyimsə çatmır, amma o nədir, bilmirəm. Yalnız bunu bilirəm ki, nəsə yeni bir iş

görməliyəm; həyatımı dəyişdirəcək, özümü dəyişdirəcək bir iş. Nəcəfabaddan buracan gəlmişəm ki, mənə bir yol göstərəsən. Sən Allah yanında əzizsən. Allahdan istə ki, düzgün yolu qarşıma çıxarsın, "siratəl-mustəqim"i mənə göstərsin, mənə göz qoysun, yolumu azmayım, şəhidlərin yol və məqsədlərinə sadiq qalım, axırda da mənə şəhidlik nəsib etsin ki, bu dünyadan üzüağ gedim...

Yenə kövrəlib ağladım. Yenə Hacı Əhmədi Allahla öz aramda vasitəçi saldım. Yüngülləşəndən sonra bir fatihə oxuyub ayağa qalxdım. Hava qaralmamış qayıtmalı idim. Yenə motosikletə oturdum. Lakin bu dəfə ümidli və yüngül idim. Əmin idim ki, nəsə baş verəcək və mən bu boşluqdan və faydasızlıqdan çıxacağam.

Şam yeməyində süfrə başında oturmuşduq. Anam gözucu mənə baxırdı. Sanki nəsə soruşmaq, nəsə demək istəyirdi. Axırda dözməyib dedi:

- Nə olub, Möhsün? Gözlərin qızarıb; ağlamısan?

- Bir şey olmayıb, - dedim.

Bacım Zöhrə yeməyini çeynəyə-çeynəyə dedi:

- Təxti-fulada gedib, yüz faiz.

Atam bəhanə tapmış kimi məni dahiyanə tərzdə süzüb dedi:

- Oğul, ehtiyatlı ol, maşın dolu yollarla motosikletlə İsfahana getmə!

Motosiklet sürməməkdən ibarət təkrar mövzunun bir də açılmasını sevmirdim. Süfrədən geri çəkilib dedim:

- Bu gün tez yatmalıyam. Sabah dərsim var.

Ayağa qalxmaq istəyəndə atam dedi:

- Nə tez! İstəyirdim birlikdə Hacı Hüseyn Yektanın çıxışına gedək.

Onda yadıma düşdü ki, bu axşam Hacı ağa Yektanın çıxışı var. Çox yorğun olsam da dedim:

- Gələcəm, ata.

- Hələ yarım saat var, - atam divar saatına baxıb dedi. – Bir stəkan çay içib hazırlaşıram.

Anam üzünü mənə tutub dedi:

- Möhsün can, sən yorğunsan, get, istirahət elə. Demədin ki, sabah dərsin var?!

- Eybi yox, - deyə yerimdən qalxdım, - Hacı Hüseyn Yektanın sözlərini sevirəm. Çıxışına getmək istəyirəm.

Otağıma girdim. Hacı Əhmədin taxçanın divarındakı şəkli gözlərimə sataşdı. Məzarının üstündəki çərçivəyə də həmin şəkil salınmışdı. Qələmi götürüb şəklin altından yazdım: “Hacı, gözləyirəm”. Nəyi gözlədiyimi bilmirdim. Bəlkə də, axşamüstü etdiyim duanın bu gecə qəbul olmasını istəyirdim; bəlkə də, bir möcüzə ilə daxilimdə dəyişiklik yaranmasını istəyirdim. Bu ümidlə atamla birgə Hacı ağa Yektanın xütbəsinə getdik. Çıxışının mövzusu “Hər şeydən qopub Allaha üz tutmaq” idi; tam da mənim dinləmək istədiyim mövzu.

Hacı Hüseynin özü müqəddəs müdafiə dövrünün yadigarı idi, cəbhə və döyüşçülər haqda xatirələri adamın könlünü oxşayırdı. Həmin axşam “Hər şeydən qopub Allaha üz tutmaq” barədə geniş danışdı. Xülasəsi budur ki, bu məqama çatanda Allah səni alır, Allah da birini alanda Öz yolunda şəhid edir, Öz yanına aparır.

Həmin axşam çox təsirləndim, özümdən acığım gəldi. Allah məni satın almamışdı, bundan sonra da çətin alaydı. Mən Allah üçün yaxşı məhsul deyildim, yetərincə keyfiyyətim yox idi. Mən bu mərhələyə çatmış adamlardan çox geridəydim. Nə etməli idim? Hacı Hüseyn deyirdi ki, gərək kimi və ya kimlərisə özünüzə örnək seçəsiniz, lazımi şüur əldə etmək üçün kitab oxuyasınız, sonra da həyəcan ardınca olasınız, özünüzü unudasınız,

dünya bağlarından qurtulasınız, dünyaya könül verməyəsiniz, şəhidlərdən öyrənəsiniz və onları özünüzə nümunə seçəsiniz.

Hacı Hüseyn danışdıqca bilirdim ki, bu mərhələdən nə qədər uzaqdayam və özümə çəki-düzən verməliyəm. Axşamüstü Şəhid Əhməd Kazimidən mənə düzgün yolu göstərməsini istəməyim yadıma düşdü. Sanki əlimdən tutub məni keçmiş döyüş yoldaşına tapşırmışdı.

Ertəsi gündən mütaliəyə başladım. Hər şeydən qopmağın sirrini tapmalı, digərlərinin bu mərhələyə necə çatdıqlarını öyrənməli idim. Din böyüklərinin həyatlarına dair kitablardan başladım, Ayətullah Behcət, Rəcəbəli Xəyyat, Hacı ağa Dolabi və İmam Xomeyni barədə oxudum. Faydalı olacağını düşündüyüm, ya da digərlərinin tövsiyə etdikləri hər bir kitabı oxuyurdum. Daha dostlarımla az gəzməyə gedirdim. Evdən çıxmağım yalnız universitetə getməkdən ibarət olmuşdu. Sonralar da hər həftə İsfahana gedib Ayətullah Nasirinin əxlaq dərsində iştirak etməyə başladım.

Tapdığım, oxuduğum yaxşı mövzuları digərləri ilə paylaşmamağa heyfim gəlirdi. “Misbah” adlı bir bloq açdım. Bu bloq sonralar “Misaq” saytına çevrildi. Özünüislah və İslam əxlaqı barədə sanballı nə tapırdımsa, sayta yerləşdirirdim. Daha sonra müharibə şəhidləri barədə kitablar oxudum. Bu kitablar məni şəhadət aşiqi etdi.

# 7

Universiteti bitirdim. Hər səhər Nəcəfabaddan Əlavicəyə gedib-qayıtmaq asan deyildi; o ki qala o yaşlı mikroavtobuslarla. Sübh tezdən evdən çıxıb bir qədər piyada gedir, sonra mikroavtobusa minirdim. Universitetin işimə yarayacaq bir şeyi yox idi. Təkcə diplomu vardı, onun da nəyə yarayacağı bəlli deyildi. Təhsili davam etdirməyin xeyrindən keçib subbakalavr diplomu ilə kifayətləndim.

Bir gün otağımda uzanıb kitab oxuyurdum. Anam qapını açıb dedi:

- Möhsün, gəl nahara.

- Atam gəlib ki?

- Bəli.

Yerimdən qalxıb bayıra çıxdım. Atam süfrə başında oturmuşdu. Salam verib yanında oturandan sonra:

- Hərbi xidmətə getmək istəyirəm, - dedim.

- Mübarək olsun! – mənə baxıb dedi.

Anam plov buludunu süfrəyə qoyub oturandan sonra dedi:

- Dərsin təzə qurtarıb. Bir az istirahət elə, sonra gedərsən.

Uşaqlarının hərbi xidmətindən söz düşəndə qorxuya düşən bütün analar kimi, mənim anam da bu haqda danışmağımdan narahat olurdu.

- Əvvəl-sonra nədir ki?! Gərək əsgərliyə getsin də! – deyə atam bildirdi, sonra üzünü mənə tutub əlavə etdi: - Korpusdakı dostlarımla danışaram, hərbi xidmətini orada keçərsən.

Bilmirdim hansı qərara gəldiyimi və ümumiyyətlə, korpusa getmək istəmədiyimi ona necə deyim. İki-üç tikə yeyəndən sonra dedim:

- Orduda xidmət etmək istəyirəm.

Həm atam, həm anam yeməkdən əl saxlayıb gözlərini mənə dikdilər. Təkcə Zöhrənin başı aşağıya idi.

- Orduda?! – deyə atam soruşdu.

Ağzımda yemək vardı. Başımı yellədim.

- Orduda niyə? Məgər korpusa nə olub? Korpusda o qədər dost-tanışım var. Çoxu müharibədə döyüş yoldaşım olub. Onlarla danışaram, xidmətin də burada olar, öz şəhərimizdə.

- Mən də elə buna görə korpusa getmək istəmirəm. Burda komandirlər səni tanıyırlar; hərbi xidmətim rahat keçəcək, istəyəndə evə gəlib-gedəcəm. Mənsə belə olmasını istəmirəm.

- Bəyəm bu, pis bir şeydir? – anam təəccüblə soruşdu.

- Hə, pisdir, - dedim. – Bəlkə, mənə rahatlığı olacaq; bəlkə, sizə də yaxşı olacaq, uşağınız qulağınızın dibində xidmət edəcək, gəlib-gedəcək. Ancaq bu, düzgün deyil, bir cür ayrıseçkilikdir, mənimçün əlavə bir imtiyazdır. Bəs camaatın uşaqları? Dost-tanışı olmayanlar orduya düşməli, çətin və təhlükəli yerlərdə xidmət etməlidirlər? Orduya düşmək istəyirəm. İstəyirəm ki, xidmətim çətin olsun; çətinlik çəkim, çoxlarının dediyi kimi, əsgərliyə gedib adam olum, kişi olum.

Açıq şəkildə cavablarını vermişdim. Atam başını aşağı salıb fikrə getmişdi. Bilirdim ki, nə dediyimi anlayır. Özü illərlə müharibədə olmuşdu, məni başa düşürdü. Ancaq anam sızlamağa başlayıb dedi ki, orduya getməməlisən, birdən şərq sərhədlərinə düşərsən, quldur və qaçaqçılar səni əsir tutarlar. Artıq yeməyi kənara qoymuşdu. Onda

bildim ki, hərbi xidmət barədə danışmaq üçün pis zaman seçmişəm. Gərək yeməkdən sonraya saxlayaydım.

Nahardan sonra otağıma girdim. Anamın səsini eşidirdim, atama deyirdi ki, sözümə qulaq asmasın və adımı korpusa yazdırsın. Yenə atam sağ olsun, deyirdi ki, Möhsün uşaq deyil, qərarı özü verməlidir. Hətta belə dediyini də eşitdim: "Möhsün səhv demir, ordu da pis yer deyil".

Beləliklə, gedib xidmətə hazırlıq dəftərçəmi aldım. Xidmət yerim hələ bilinmirdi. Mənimçün fərqi yox idi. Bəzən öz-özümə düşünürdüm ki, pis yer olsa, daha yaxşı.

Təlimdə Ərdəbilə düşdüm; ilk dəfə gördüyüm şəhərə. Hicablı qız və qadınları olan bu dindar şəhər digər şəhərlərdən çox yaxşı idi. Təlimdən sonra da orada qalmaq istəyərdim, amma adlar oxunanda bildim ki, Dezful zirehli briqadasının xüsusi təyinatlı bölüyünə düşmüşəm; yəni soyuq bir şimal şəhərindən isti bir cənub şəhərinə.

İkiillik hərbi xidmətin necə keçdiyi qalsın, amma ümumilikdə pis olmadı. Çətindi, amma çətinlikləri faydalı və öyrədici idi. O çətinliklərin sonralar mənə çox köməyi dəydi. Həm də mən işi-gücü boş divarların yanında qarovuldan ibarət olan adi bir əsgər deyildim. Qarovul vardı, amma ondan sonra bizi komando və partizan təlimlərinə aparırdılar: qaçmaq, hoppanmaq, əlbəyaxa döyüş... Özümə görə bir partizan olmuşdum. Bu əsgərlik sonralar çox işimə yaradı, çox.

Hərbi xidmətdən sonra yenə bekarlıq və gələcəyin fikri: nə işləyim, evlənib ailə qurum... Gələcəyim üçün heç bir planım yox idi. Anam deyirdi ki, təhsilini davam etdir, universitetdə bakalavr təhsili al, mənsə razılaşmırdım. Diplom heç bir işimə yaramırdı. Birinci addım iş tapmaq

idi. Lakin iş tapana qədər qərara alındı ki, Nəcəfabadda sərgi keçirilsin. Stendlərdən biri də mənə tapşırıldı.

İkinci gün səhər çağı təkbaşına stenddə oturmuşdum. Sərgi zalında seyrəklik idi, mən də mobil telefonumla məşğul idim. Birdən incə bir qız səsinə diksinib başımı qaldırdım. On səkkiz-on doqquz yaşlı hicablı, amma çadrasız, bir az da bəzənmiş bir qız qarşımda dayanmışdı. Düzü, onu görəndə özümü itirdim, səbəbini də bilmədim. Bəlkə də, kitab almaq istəyən müştərilərdən idi. Bir də onda özümə gəldim ki, gözlərimi çəkinmədən zavallı qızın gözlərinə dikmişəm. Tez özümü toparlayıb başımı aşağı saldım. Məlahətli səsi ilə soruşdu:

- Bağışlayın, ağa Hücəci, "Şəhər kitabı"nın nömrəsini verə bilərsiniz?

"Şəhər kitabı"nın nömrəsini? Bunu niyə istəyirdi ki? Bir qədər sonra dedim:

- Nömrə? Bəli... bəli...

Nömrəni dedim, yazıb təşəkkür etdi. Gedəndə həyəcanla soruşdum:

- "Şəhər kitabı"nın nömrəsini niyə istəyirdiniz?

- Elə-belə. Bəzən bir kitab axtarıb tapmayanda zəng vurub soruşmaq istəyirəm.

- Bəli... çox yaxşı fikirdir.

Gülümsəyib getdi.

Qız getdi, amma sanki bir şeyi də özüylə apardı: ürəyimi. Ürəyim çox qəribə tərzdə titrəmişdi onu görəndə. Bir neçə dəqiqə özümə gələ bilmədim. Bu nədir? Bu necə hissdir? Özümə deyindim ki, utan, Möhsün, xəcalət çək! Gözün camaatın qızında qalıb? Dediyin həya, ismət, təqva budur?! O qədər özünüislahın, özünün dediyin kimi, "Hər şeydən qopub Allaha üz tutmağ"ın nəticəsi budur?! Özümdən acığım gəldi, Allahdan bağışlanmaq istədim.

Amma gördüm ki, olmur. Qızın üzü daim gözlərim önündəydi, hey onun getdiyi səmtə baxırdım. Bir stendə tərəf getdiyini görmüşdüm. Deyəsən onun da stendi vardı. "Məfatih" kitabını götürüb Mücir duasını oxumağa başladım; kar eləmədi. Yarım saat yerimdə vurnuxdum, axırda kitab elanlarından birini götürüb stendlərinə sarı getdim. Qız bir dostu ilə oturmuşdu. Mənə baxırdılar. Onlara baxmadan başıaşağı:

- Bağışlayın, olar bunu stendinizin dirəyinə yapışdırım? – deyə soruşdum, sonra başımı qaldırdım.

- Qoy icazə alım, - qız təbəssümlə və dəcəllik yağan baxışla cavab verdi.

Yerindən qalxıb getdi və az sonra gəlib dedi:

- Eybi yoxdur, ağa Hücəci.

"Hücəci" deməsindən necə də xoşum gəldi! Kağızı yapışdırmaq istəyəndə yadıma düşdü ki, nə yapışqan lent gətirmişəm, nə də knopka. Qız necə yarıtdığımı başa düşüb yapışqan lenti mənə uzatdı.

- Buyurun, yapışqan lent!

Xəcalətimdən qızardım. Pis korlamışdım. Gəlişimin məqsədi ifşa olmuşdu. Yapışqan lent və knopka götürmədən stendlərinə niyə gələ bilərdim? Təbii olmadığı bəlli idi. Qızlar bunu anlayıb mənalı təbəssümlə mənə baxırdılar. Tələsik, bəlkə, heç sağollaşmadan oradan getdim, amma ürəyimi geri ala bilmədim.

Aşiq olmuşdum. Buna şübhəm yox idi. Özü də bir-iki baxışla. Bunu həmin axşam fikir və xəyallarımdan, yuxusuzluq və iştahsızlığımdan bildim. Eşqin bütün əlamətləri məndə vardı. Yuxusuzluqdan təngə gəlmişdim. Gecə saat 1-də qalxıb gecə namazı qılmağa başladım; özü də necə gecə namazı! Allahdan bu hissi məndən uzaqlaşdırmasını istəmək yerinə dua edirdim ki, yaxşı

qızdırsa, Allah mənə qismət etsin və bu izdivaca şərait yaratsın. Heç demədim ki, Xudaya, Özün necə məsləhət bilirsənsə, elə də elə. Bir növ həyasızcasına Allahdan istədim ki, bu işi düzəltsin. Evlənmək vaxtım idi.

İki-üç gün keçmədən öyrəndim ki, adı Zəhradır – Zəhra Abbasi. Orta məktəbi yeni bitirib ali məktəbə qəbul imtahanlarında iştirak etmişdi. Ailənin yeganə qızı idi, həyat tərzləri və ailə mədəniyyətləri bizdən bir qədər fərqli idi. Ancaq ürəyim deyirdi ki, yox, hələ gözlə, daha yaxından tanı, onun-bunun sözünə qulaq asma...

İkinci gün yanıma gəldi; xüsusi şəkildə, əvvəlkindən bir qədər utancaq halda. Dedi ki, Hacı Hüseyn Yektanın kasetlərindən bir neçəsini istəyir. Bildim ki, bəhanədir. Allaha şükür etdim ki, bu bəhanələrdən çox olsun. Yaxşı hisslər keçirirdim. Deməli, o da mənim kimi işə düşmüşdü.

- Bəli, - dedim, - Hacının bütün kasetləri məndə var. Flaş kart varınızdır?

- Vay! Yoxumdur. Onda qalsın sonraya. Gedim flaş kart alım, gəlim.

Bildim ki, o da yapışqan lent və knopka götürmədən gəlib!

- Eybi yox, - dedim. – Mən hard diskimi sizə verərəm, aparıb evdə kompüterinizə köçürərsiniz.

Təşəkkür etdi və bir qədər mızıldadı. Sanki nəsə demək istəyirdi, amma demədi. Tez diski çantamdan çıxarıb ona verdim. Bundan yaxşı nə ola bilərdi?! Diski aldı, getmək istəyəndə dedim:

- Bağışlayın, xanım Abbasi, diskin axırında şəxsi şəkillərim var. Dedim ki, biləsiniz.

- Bildim, - gülümsəyib dedi.

Bütün mimikaları göstərirdi ki, bəli, mənim kimi onun da ürəyi ilişib.

Ertəsi gün Mehdi gəlib stenddə oturan kimi onların stendinə getdim. Xoşbəxtlikdən, tək oturmuşdu. Məni görən kimi ayağa durdu, qızardı və yarımçıq salam verdi. Mən ondan soyuqqanlı idim. Gecənin yarısına qədər onu düşünmüş, indi də diskimi almaq bəhanəsi ilə qarşısında dayanmışdım. Diski verib çox təşəkkür etdi və dedi:

- Bir də, şəkillərinizə də gözüm sataşdı, marağımı çəkdi və icazənizlə baxdım. Cəbhə bölgələrindən və Məşhəd ziyarətindən çox yaxşı şəkilləriniz vardı.

Bunu təxmin edirdim və məncə, eybi yoxdu. O, artıq mənim keçmişimin bir hissəsini görmüşdü.

- Eybi yox, xanım Abbasi, inşallah, sizin diskiniz də mənim əlimə keçər, mən də sizin ekskursiya şəkillərinizə baxaram, - dedim, ikimiz də gülüşdük.

- Düzü, bir pis iş də görmüşəm. Diskinizdən telefon nömrənizi də götürmüşəm. Dedim ki, nə vaxtsa kitab, poster və bu kimi şeylər üçün lazım ola bilər.

Daha bundan yaxşısı ola bilməzdi. Kor nə istər? – İki göz!

Mən də bic-bic gülümsəyib dedim:

- Onda pis olmaz ki, bir dəfə zəng vurasınız, sizin nömrəniz də məndə olsun.

Telefonunu götürüb zəng vurmaq istəyəndə özünə zəng gəldi.

- Salam, ata!

Atası idi. Rahat danışsın deyə mən uzaqlaşmaq istəyəndə birdən qışqırdı:

- Vay, ata! Düz deyirsən?! Allahım! Nə yaxşı xəbər!

Danışıb qurtarandan sonra soruşdum:

- İnşallah, xeyirdir!

- Bəli, xeyirdir, ağa Hücəci, - mənə şirin-şirin baxıb dedi. – Mən universitetə qəbul olmuşam, özü də istədiyim ixtisasa.

Pis xəbər deyildi. Sevincinə şərik olmağa çalışdım, təbrik etdim və yenə üzümə salıb dedim ki, şirinliyi yaddan çıxmasın. Razılaşdı, amma Babul şəhərinə qəbul olduğunu söyləyəndə sanki başıma soyuq su tökdülər.

- Babula niyə? İnşallah, getməzsiz!

- Mütləq gedəcəm. Dayım Babuldadır, narahat olmayın, tək deyiləm.

O haradan bildi ki, mən narahatam? Əgər bildisə, bəs niyə gedir? Yəni onun barəsində bütün fikirlərim yanlış olub?

Ondan sonra mesajlaşmalar başlandı; hər dəfə bir bəhanə ilə. Birinci dəfə yazdı ki, ağanın şəklini istəyir. Sonra şəriət və siyasətdən suallar verdi, mən də cavablandırdım. Yaxşı hadisələrin baş verməsi xoşuma gəlirdi; eşq qəlblərimizdə yuva salmışdı və artıq ailə qurmaq barədə düşünməli idim.

Cümə günləri telefonumu söndürürdüm. Bir cümə axşam telefonumu açanda gördüm ki, çoxlu mesaj yazıb və zəng vurub. Ona zəng vurdum. Dərhal açdı və tez salamlaşıb narahat halda soruşdu:

- Siz hardasız?

Əhvalını soruşub dedim:

- Bu gün cüməydi axı!

- Nə olsun?! Niyə bütün günü telefonun sönmüşdü?

Bildirdim ki, cümə günləri telefonumu söndürürəm; sübh tezdən Nüdbə duasına gedirəm, sonra günortaya qədər mütaliə edirəm, günorta cümə namazı və imamın zühuru üçün dua.

- Vay... Xoş halınıza, - dedi. – Nə yaxşı işlərdir!

- Siz də edə bilərsiniz. Bircə Bismillah lazımdır.

- Bismillah. Amma mənim başqa problemlərim də var. Hərdən sübh namazım qəza olur. Kaş sübhlər məni oyadaydınız!

- Əlbəttə! Məmnuniyyətlə.

Ondan sonra çox fikir verirdim ki, namazlarını ilk vaxtında qılsın. Hər namaz vaxtı ona mesaj yazırdım. Bəzən də gecəyə qədər yazışırdıq.

Bir müddətdən sonra fikirləşdim ki, məsələni evdəkilərə söyləyim. Bəlkə də, bundan artıq dostluq və yazışma düzgün deyildi. Ancaq işsiz idim, elə də qazancım yoxdu. Fikirləşdim ki, gərək prioritetim iş olsun. Dünyanın harasında işsiz adama qız verirlər ki?! Bununla bərabər, belə davam etmək istəmirdim. O da bu fikirdəydi. Mənə demişdi ki, anam məsələdən xəbərdardır və tanışlıq tamamlanıbsa, işi rəsmiləşdirməyimizi istəyir. Habelə demişdi: “Anam “Şəhər kitabı”na gəlib səni görüb, bəyənib və deyib ki, şəhidlərə necə də bənzəyir!”

Bu sözlərdən xoşum gəldi. Axşam yeməyindən sonra ata-anamın yanında oturub bütün macəranı danışdım və evlənmək istədiyimi söylədim. Anam sevinib atama baxdı. Atamsa bir qədər fikrə gedib dedi:

- Ailə qurmaq ilahi qanundur, lazımdır, amma sən buna hazır olduğunu düşünürsən? Yəni iş...

- Bəli, iş barədə düşünürəm, - deyə sözünü kəsdim. – İndi kitab satışından gəlirim çox deyil. Əgər siz bir addım atsanız, günü sabah daimi iş axtarmağa başlayacağam.

- Lap yaxşı! İş hələ ciddi problem deyil. Ruzini yetirən Allahdır, Özü düzəldər. Sən de görək bu qız kimdir, ailəsi necədir, barələrində nə bilirsən...

Hər şeyi söylədim. Onları tanımırdılar, dedilər ki, araşdırıb fikrimizi deyərik.

Araşdırandan sonra dedilər ki, bu ailə bizim kimi deyil, bəzi fərqlərimiz var. Bunu atam söylədi. Ondan soruşdum:

- Nə kimi fərqlər? Bu ailə barədə nə deyiblər?

- Pis bir şey eşitməmişəm. Amma bil ki, onlar açıq ailədirlər. Necə deyim? Bəzi məsələlərə riayət etmirlər.

- Məsələn, necə məsələlərə?

Deməyə çətinlik çəkirdi.

- Necə deyim ki, pis bir şey fikirləşməyəsən və niyyətimin pis olmadığını da biləsən. Bax, oğul... Bacına bax, heç görmüsənmi qaşının altını alsın, ya da bəzənib harasa getsin?! İndiyədək görmüsənmi biz rəsmi icazəsi olmayan musiqi dinləyək?! İndiyədək görmüsənmi anan, ya bacın cins şalvar geysin, ya da manto ilə bayıra çıxsın?!

- Bunları düzəltmək olar. Zəhra mənim yoldaşım olandan sonra düzəldərəm. Bunlardan ötrü narahat olma.

Anam sözümün davamını gətirib dedi:

- Özüm düzəldərəm gəlinimi. Bizim ailəmizə gəlsin, eynilə özümüz kimi olacaq, narahat olma.

Atamsa narahat idi. Razılaşmır, elçi getmək istəmirdi. Digər tərəfdən də mən hər gün daha çox əsir olurdum. Yalnız mən yox, o da narahat idi, münasibətlərimizin rəsmiləşməsini istəyirdi, amma olmurdu. Atamla sərt danışa və onu elçiliyə məcbur edə bilməzdim.

Narahatlıq və qərarsızlıqla dolu bir həftə keçəndən sonra anamla nənəm məndən xəbərsiz onlara getdilər. Anam nənəmə demiş, o da atama bildirmişdi ki, qızın ailəsi ilə üz-üzə danışmağa gedirik. Anamla nənəmin hər ikisi bu seçimə görə məni təbrik edib dedilər ki, əsla narahat olma, atanın razılığı bizim boynumuza. Hər ikisini qucaqlayıb öpdüm. Həmin axşam iki rükət şükür namazı qıldım. Bir neçə gün idi işim dua, təvəssül və nəzirdən ibarət olmuşdu; həmçinin Zəhranın. Nəhayət, dua və

təvəssüllər bəhrəsini verdi və yeddibudaqlı qızılgül dəstəsi ilə elçiliyə getdik: beşi “Beş kimsə” niyyəti ilə dairəvi, ikisi də özümüzü təmsil edən ağ və qırmızı güllər. Zəhraya hədiyyə vermək üçün “Kərbəla müsafiri” kitabını da vurdum qoltuğuma.[1]

[1] Bax: Əli Əkbəri Muzdabadi, Xəncər altında, 2018.

# 8

İş bitdi; yəni elçilik mərasimi bitdi. Zəhranın ata-anasının razılığı alındı və qərara gəldik ki, hələlik qan analizi və bu kimi işlərlə məşğul olaq. Getdik və heç bir problem çıxmadı. Növbəti dəfə nişan və toy tarixlərini və mehri təyin etməyə, habelə digər adət-ənənələrlə bağlı razılığa gəlməyə toplaşdıq. Bu adətlərin ən çətini mehri təyin etmək idi. Mehr məsələsi biz gənclər üçün bir əzab idi və əzabdır. Mənim fikrim 14 məsum niyyəti ilə 14 ədəd qızıl idi. Ata-anam etiraz edir, deyirdilər ki, azdır, ayıbdır; razılaşmayıb deyirdilər ki, sən dinmə, biz özümüz təyin edəcəyik. Qərara gəlmişdilər ki, atam 80 ədəd qızıl təklif etsin. Deyəsən bizim qohumlar arasında adət beləydi.

Axşam hamımız ağa Abbasinin evinə toplaşdıq. Evdə qələbəlik idi. Bir neçə əmi və dayısı da ailə-uşaqları ilə gəlmişdilər. Söhbət gəlib mehrə çatdı. Atam başqaları kimi demədi ki, kim verib, kim alıb, yaxud mehr dəyərsiz bir şeydir, əsas gənclərin bir-birini sevməsidir; bunu da demədi ki, mehrin boşanmaya təsiri yoxdur və s; açıq-aşkar dedi ki, 80 qızıl. Zəhranın qohumları bir-birinə elə baxdılar ki, elə bil onları söymüşdü. Məlumdu ki, bu miqdarla razı deyillər. Mənimsə alış-veriş qoxusu gələn hər şeydən zəhləm gedirdi! Bu faydasız və zənnimcə, şəriətə zidd mövzuların tez bitməsini və izdivac tarixi barədə müzakirənin başlamasını istəyirdim.

Bütün gözlər Zəhraya və atasına dikilmişdi. Ağa Abbasi cibindən bir kağız çıxarıb önündə tutdu, əvvəlcə üstündən mənə baxıb gülümsədi, sonra dedi:

- Əslində, mehr qızındır və o, təyin etməlidir. Zəhra xanımın mehr barədə fikri fərqlidir. Mənə yazıb ki, eynilə

onu sizə oxuyum. Onun fikri mən və anası üçün möhtərəmdir.

Çox həyəcanlı idim. Onların və bizim qohumlarımızın hamısı gözlərini ağa Abbasiyə dikmişdilər. Mənsə gözucu şirin təbəssümü ilə daha da gözəlləşmiş Zəhraya baxırdım.

Ağa Abbasi mehrin əhəmiyyətli bir şey olmadığını açıqlayandan sonra oxumağa başladı:

"Bir Allahın niyyəti ilə bir qızıl; Əba ailəsi olan "Beş kimsə" niyyəti ilə beş qızıl; ağa İmam Mehdinin niyyəti ilə on iki ədəd nərgiz gülü; həyatın duzu niyyəti ilə on dörd misqal duz; yüz iyirmi dörd min salavat; Qurani-kərimi tam şəkildə və tərcüməsi ilə birlikdə əzbərləmək".

Sükut partlamayan bomba kimi məclisin ortasına düşüb qaldı. Heç kimdən səs çıxmır, hamı mat-məəttəl bir-birinə baxırdı. Baxışlar əsasən Zəhranın üzünə cəmləşmişdi. Zəhra başını aşağı salmaq, əmi və dayılarının məzəmmət dolu baxışlarından qaçmaq yerinə başını dik tutub gülümsəyirdi.

Sonra etirazlar başladı. Əvvəlcə dayıların biri dedi:

- Bizi ümumilikdə altı qızıldan ötrü bura gətirmisiz?! Belə şey olar?! İndiyə qədər belə bir şeyə rast gəlmisiz?!

Sonra əmisi dilləndi:

- Bala, düzgün qərar ver, hissiyyata qapılma. Çox mehr həyatının möhkəmliyi üçün yaxşı şeydir.

Zəhra hamısının cavabında deyirdi ki, bunlar mühüm deyil; mühüm olan düzgün seçim etməyimdir ki, bunu da etmişəm.

Sonralar zarafata Zəhraya dedim: "Ay qız, məni düşünmədinmi bu mehri təyin edəndə? İndi mən yazıq bütün Quranı tərcüməsi ilə birgə necə əzbərləyim?! Özü də yüz iyirmi dörd min salavatla".

Ondan sonra hər gün görüşüb nişan və toy barədə planlar qururduq. Dəvətnaməmizi ortadan ikiyə bölünmüş alma şəklində çap etdirdik, Zəhranın təklifi ilə içinə bu şeiri yazdırdıq:

Bu asanlığa

Şəhidlərin ayaq izlərinə ayaq basmaq olar.
Həyatları budur;
Qələmlə birgə xəyallarım üzərində qaçır.

Şəhidlər tərzilə izdivacın
Əvvəli gözəl bir seçim deməkdir.
Sonra mehr, alış-veriş və cehiz,
Üstəgəl şəhidlərin məramı.

Ən gözəl başlanğıc odur.
Ümidvaram ki, bu xatirələr
Təcrid olunmuş mənim üzümü tutsun
Şəhidlərin və allahçı olmuşların qədəmgahına.

Bu dəvətnaməyə görə dostlarım məni ələ salırdılar. Deyirdilər ki, səksəninci illərin toy dəvətnamələrindəndir. Toyumun həmin onillikdə cəbhələrdə şəhid olmuş insanların toylarına bənzədiyi üçün fəxr edirdim. Əlbəttə, bu hissə hələlik toy deyildi, nişandı və onu digər nişanlardan geniş keçirdik.

Ondan sonra iş barədə düşünmək lazım idi. Yaxşı iş tapmaq üçün hansı qapını döydümsə, alınmadı. Axırda bir zavoda gedib heç istəmədiyim bir işə başladım. Çarə yox idi. Zəhranın ailəsinin mənim işsiz olduğumu düşünməsini istəmirdim.

Nişandan sonra sanki üzümə yeni dünya açılmışdı. Artıq tək deyildim. Zəhranı motosikletin tərkinə mindirirdim və gəzməyə gedirdik. Amma hara? – Nəcəfabad və İsfahanın şəhid məzarlıqlarına; Şəhid Kaziminin, Hüseyn Xərrazinin və digərlərinin məzarına. Şəhidlərin hər birinin qəbri üstə cəmi iki dəqiqə dayanıb Fatihə oxuyurduq. Mənim kimi Zəhra da şəhidləri sevirdi və bu, mənim xoşuma gəlirdi. O, şəhidləri tez-tez ziyarət edirdi. Elə birinci dəfə Şəhidlər gülzarı məzarlığında dedim ki, mənim də bir gün şəhid olmam üçün dua etsin. Üzünü turşutdu və dedi ki, bir də bu sözü söyləməyim. Şəhidlik arzum barədə danışmağımı sevmirdi. Əlbəttə, haqlı idi; izdivacın əvvəli idi, bu dövrdə sevinib şənlik etmək lazımdı, getməkdən və şəhid olmaqdan danışmaq yox. Hərçənd şəhidləri və onların yolunu davam etdirməyi sevməyin o zamana aidiyyəti yoxdu. Həmişəki dualarımdan biri şəhidlik səadəti idi.

Bir dəfə axşamüstü Zəhra zəng vurdu ki, darıxıram, gəl bizə. Zavoddan yeni gəlmişdim. Dedim ki, yarım saata oradayam. Mən çatanda hazır idi, mantosunu da geymişdi. Məni görən kimi çadrasını başına atdı, motosikletin tərkinə oturub dedi:

- Gedək Şəhidlər gülzarına.

- Nə olub? İnşallah, xeyirdirmi? – deyə təəccüblə soruşdum.

- Darıxıram, gedək ora.

- Kor nə istər? – İki göz, - gülüb dedim.

Məzarlıqda əlimdən tutub dedi:

- Gəl... sənə bir şey göstərmək istəyirəm.

Bir məzarın qarşısında dayandı. Məzarın üstünə "Şəhid Möhsün Hüccəti" yazılmışdı. Soruşdum ki, nə olsun? Sonra dizlərimi qatlayıb Fatihə oxumağa başladım. Birdən

ağlamağa başladı. Fatihəni yarımçıq qoyub narahat halda soruşdum:

- Nə olub, Zəhra? Niyə ağlayırsan?

Kövrək səslə, ağlaya-ağlaya dedi:

- Cümə axşamı anamla bura gəlmişdik. Mən bu şəhidin adını səhvən “Möhsün Hücəci” oxuyub çox qorxdum. Səni bura gətirdim mənə söz verəsən ki, heç vaxt şəhid olmayacaqsan.

- Ağlama, əzizim, - təbəssümlə ona baxıb dedim. – Şəhidlik hardaydı?! Hələ ki, zavoddakı iş namazımızı vaxtında qılmağa qoymur. Şəhidlik bizim kimi günahkarlara görə deyil!

- Sən günahkar deyilsən, Möhsün. Şəhid olmaqdan da çox danışırsan, həmişə deyirsən ki, dua edin, şəhid olum. Daha mənim yanımda belə söz danışma.

- Gözüm üstə, əzizim! Daha deməyəcəm ki, şəhid olum, sən də gəlib qəbrim üstə ağlayasan. Deyəcəm ki, Xudaya, elə et, müqəddəs müdafiə dövrünün yüzlərlə qəbirsiz-kəfənsiz şəhidi kimi həm ruhumla, həm cismimlə gedim...

- Bəsdir, Möhsün! – sözümü kəsib amiranə tonla dedi. – Daha eşitmək istəmirəm.

Əlindən tutub başqa bir məzara tərəf apardım.

- Bax, Zəhra can, şəhid olmaq mənim arzumdur, amma çoxdandır şəhadət qapıları üzümüzə bağlanıb. Şəhid olmaq üçün mən gərək 30 il tez doğulaydım. Odur ki, narahat olma. Deyirlər ki, pis mal, sahibinin qulağının dibində olar. Mən səninəm və həmişəlik qalacağam.

Zəhranın narahat olması normal idi. Bu müddətdə o qədər adamdan şəhadət duası istədiyimi görmüşdü ki, çox qorxmuşdu.

# 9

Narahat idim; narahat və yorğun. Get-gedə hər şeydən acığım gəlirdi; xüsusən də xoşum gəlməyən, mənimlə və xarakterimlə heç bir uyğunluğu olmayan zavod işindən. İşdən çıxdım. Atam, anam, Zəhra və onun ata-anası soruşurdular ki, bəs harada işləyəcəksən? Hamısı işimə görə narahat idi. Təzə kürəkən idim, yaxınlarda xanımımı evimə aparmalı idim. Amma ev hardaydı?! İş hardaydı?! Ümidim vardı və daha yaxşı iş axtarırdım; bir dövlət işi, ya da mədəni-tərbiyəvi iş. Nə olsaydı, zavoddakı uğursuz işdən yaxşı olacaqdı.

Zəhra universitetini dəyişdirmişdi, öz rayonumuzda dərsə gedirdi. Bunun özü böyük şey idi.

Bir dəfə cümə namazına getmişdik. Tüstüsü ətrafı bürümüş bir kababçının qarşısından keçəndə birlikdə kabab yemək həvəsinə düşdüm: isti çörək, isti kabab! Motosikletlə dövrə vurub kababçının önündə dayandım:

- Sən otur, mən gəlirəm, - dedim.

Nəsə demək istədi, amma dayanmadım, cəld içəri girdim və bir neçə dəqiqədən sonra dörd şiş lüləkabab, isti çörək və iki ayranla bayıra çıxdım. Plastik yemək qabını ona verib dedim:

- Gedək parka, naharımızı orada yeyək.

- Gedək Şəhidlər gülzarına, - dedi, - ora da park kimidir.

Təklifini bəyəndim. Şəhidlər gülzarına gedib bir ağacın altında oturduq. Yeməkdən sonra mənə dedi:

- Möhsün can!

- Can, Zəhra!

- Pasdar olmaq istəyirsən?

- Pasdar?! – deyə təəccüblə ona baxdım. Bu barədə heç vaxt düşünməmişdim, amma o anda dərhal dedim: - Yox, xoşum gəlmir.

- Niyə? Pisdir ki? Hacı Əhməd də pasdar olub. Sənin sevdiyin çox adam var ki, pasdar olublar.

Bir qədər düşünüb dedim:

- Bu peşədən acığım gəlmir, amma sənin bəyənəcəyin peşə deyil. Adamın ixtiyarı öz əlində olmur. Bir hərbçi özünün və xanımının olmaqdan çox hərbi birləşmənindir. Sən ki istəmirsən gecələr yanında olmayım? İstəyirsən?

- Dediyin kimi də deyil. Gündüz işə gedəcək, axşamüstü yanıma qayıdacaqsan. Bəzi gecələr tapşırıqda ola və evə gəlməyə bilərsən; eybi yox. Amma əvəzində dövlət təşkilatında işləyirsən və sabit maaşın var. Belə olsa, daha tez toy edib birgə həyatımıza başlaya bilərik.

Bir anlıq fikirləşib dedim:

- Düz deyirsən ha! Beləliklə arzuma da daha tez çataram.

- Nə demək istəyirsən? – çəp-çəp baxıb soruşdu.

Nə demək istədiyimi başa düşmüşdü, mən də demək istəmədim ki, bəlkə, şəhadət yolu oradan keçəcək. Dedim:

- Hə, dediyin kimi, bəyəm arzumuz toy etmək deyil?!

Dərin nəfəs aldı və üzünə təbəssüm qondu:

- Onda razısan? Mən bu pasdar formasını necə sevirəm!

- Gərək fikirləşim; həm də görüm atam nə deyir.

Atam bunu eşidəndə isə çox qəti şəkildə dedi:

- Yox! Əsla olmaz!

Bunu gözləmirdim. Dedim:

- Sən niyə, ata? Sən ki müharibədə olmusan, illərlə pasdarların yanında vuruşmusan.

- Onları görürəm; həyatları öz əllərində deyil. Canları da həmişə risk altındadır. Sən ailə qurursan. Gərək elə işin olsun ki, vaxtının çoxunu ailə-uşağının yanında keçirəsən.

- Amma Zəhra razıdır. Bunu özü təklif edib.

- Zəhra uşaqdır, nə bilir hərbi iş nədir? Sən də bilmirsən. Hələ tələsmə. İnşallah, münasib iş taparsan.

Qərar vermək çətin idi. İki yolayrıcında qalmışdım. Zəhra israr edirdi ki, korpusa yazıl, pasdar ol. Bütün dostlarımla məsləhətləşdim. Bəzisi deyirdi ki, bundan yaxşısı ola bilməz, bəzisi də razılaşmayıb deyirdi: “İş başına qəhətdir?! Elə iş tap ki, öz adamın olasan!” Bunu Zəhraya deyəndə cavab verirdi:

- Mən razıyam; hətta bir həftə olmayıb tapşırığa getsən də.

Nə edəcəyimi bilmirdim. Nəhayət, 2013-cü ilin novruz bayramı gəldi. Zəhra dedi ki, gedək Quma. Mənsə Məşhədə getmək istəyirdim.

- Məşhədin xərci çoxdur, - dedi, - həm də çox qarışıqdır. Qum daha yaxşıdır.

- Yaxşı.

Nə gözəl oldu bu səfər! Çox vaxt hərəmdə olurduq; dua, namaz, sonra da şəhidlərin ziyarəti. Şəhid Zeynəddinin məzarını ziyarət etdik. Sonra dedim ki, gedək Şəhid Kamal Kourselin məzarına.

- Kamal nə?

Onu Şəhid Kourselin məzarına apardım və barəsində məlumat verdim:

- Buradakı Allah bəndəsi Avropa İttifaqının üzvü olan yeganə şəhiddir. Əsli fransalıdır, adı Jan Koursel olub. İllər öncə Tunisdə olub və orada İslam dinini qəbul edib. İslam inqilabı başlayanda Fransada olub, İmam Xomeyninin düşüncələri ilə tanışlıqdan sonra şiə olub

adını Kamal qoyub. İnqilabdan sonra da İrana gəlib Qum Elm Hövzəsinə girib. Müharibə başlayanda neçə dəfə döyüşə gedib. Müharibənin son günlərində Mirsad əməliyyatında da şəhid olub.

Zəhranın gözləri yaşla doldu. Gördüm ki, kövrəlib, danışmır. Zarafata dedim:

- Nədir? İstəyirsən ki, mən də gedib xaricdə şəhid olum?

Gözlərini sildi. Sözümə əhəmiyyət vermədi.

- Çox maraqlıdır! – dedi. – Biri dünyanın o başından gəlib burda şəhid olur.

- Hə də, buna deyirlər bəxt! Yəqin ki, bu fransız ağa Jan da bəziləri kimi şəhadət arzusundaymış.

Qaşqabaqla mənə baxıb dedi:

- Sən də şəhadətdən danışmaq üçün hər fürsətdən istifadə edirsən. Sənə bir söz deyim: Nə qədər ki mən sağam, qoymaram tək şəhid olasan! Ya mənimlə, ya da heç vaxt!

Mövzunu uzatmaq istəmədim. Müxtəsər etdim və atamın cəbhə dostlarından olan Hacı Hüseyni görməyə getdik. Təqaüdə çıxmış pasdar idi, bir neçə dəfə bizə gəlmişdi. Atam tapşırmışdı ki, Quma gedəndə mütləq Hacı Hüseynə baş çək. Deyirdi ki, xəstədir, evdə yatır, müharibədə kimyəvi hücum zamanı xəsarət alıb, gedəsidir.

Hacı Hüseyn atamdan çox cavan, amma arıq və cansız idi. Tez-tez öskürür, çətinliklə danışır, danışanda fısıldayırdı. Zəhra demişdi ki, korpusda işləmək barədə onunla da məsləhətləşim. Qərarımı eşidən kimi dedi:

- Şübhən olmasın, Möhsün can, xarakterinə uyğundursa, get. Mən gəncliyimə qayıdıb iş axtarsaydım, ya korpusa girərdim, ya da orduya. Əlbəttə, bu iş üçün eşq lazımdır – vətən eşqi. Ümidvaram ki, səndə var.

Həmin gün söhbətimizin çoxu bu mövzuda oldu. Hacı Hüseynin sözləri mənə çox təsir elədi. Zəhranın təsdiqi də öz yerində. Bütün bunlar üst-üstə gəldi və mən son qərarımı verib İslam İnqilabının Keşikçiləri Korpusunun pasdarı oldum.

# 10

Amma olmurdu; İslam inqilabının keşikçisi olmaq Zəhranın düşündüyü qədər asan deyildi. Ucu-bucağı görünməyən uzun yoldu; tibbi müayinələrdən, qan analizlərindən tutmuş sonoqrafiyaya, bütün bədənin rentgeninə və diş müayinələrinə qədər. Üç dişimin siniri çıxarılmalı idi, poliklinika isə üç ay sonraya vaxt verirdi. Borc pul alıb özəl diş həkiminə getdim. Onda şirniyyat mağazasında işləyirdim. Düşünürdüm ki, heç bir işin eybi yoxdur, hətta təcrübə və bacarıqlarımla əlaqəsi olmasa da.

Çoxlu get-gəl, müsahibə, yazılı imtahan, təhqiqat, Zəhranın atasının müraciətləri, nəzir-niyazlar və güclü dualardan sonra, nəhayət, dedilər ki, qəbul oldun. Bu qəbul isə İsfahanda hərbi təlimlərin başlanması demək idi.

Birinci həftə telefonsuz qaldığıma və heç bir rabitə əlaqəsi olmadığına görə boğulurdum. Razılıq verdiyimə görə peşman olmuşdum. Bütün günahları Zəhrada görürdüm. Bir həftəydi öz işi-gücü də ağlamaqdan ibarət olmuşdu. Bunu görüşə gələndə ağlaya-ağlaya dedi.

Həyatın qəribə eniş-yoxuşları var, heç də həmişə istədiyin kimi getmir! İstər pasdar olasan, istər tacir, biznesmen, nazir və ya vəkil – problemlər hamı üçün olub və var.

O günlərdə mən də yaxşı durumda deyildim, irili-xırdalı çoxlu sıxıntılarım vardı. Əgər Zəhranın, şəhid məzarlarının və Hacı Əhmədin eşqi, dua, ibadət, müstəhəb oruclar və ilk vaxtda qılınan namazlar olmasaydı, bəlkə də, yolda qalardım. Amma Allahın köməyi ilə hər şey yaxşı bitdi.

Zəhra məni pasdar formasında görəndə fərəhlə baxırdı. Yalnız bir şeydən qorxurdu; mənə deyirdi: "Səni kim pasdar formasında görürsə, deyir ki, yoldaşın şəhidlərə nə çox oxşayır!" Deyirdim ki, nə olsun, məgər şəhid olmaq pisdir?! Sonra kədərlə mənə baxanda deyirdim: "Əlbəttə, şəhadət mənə və mənim kimilərə qismət olacaq bir şey deyil!"

Əhməd Kaziminin müharibə zamanı yaratdığı diviziyada işləməyə başladım, həm də hansı işdə? – Topçu! Top, tank və mərmi ilə işləyirdim. Təlimləri sevə-sevə və gözəl şəkildə bitirib özümə görə bir topçu oldum.

Nişanımızdan ildırım sürətilə bir il səkkiz ay ötdü. Pis keçmədi; yaxşı, şirin və aşiqanə oldu. Artıq evimizə köçmək və həyatımıza başlamaq vaxtıydı. Evlərinin yaxınlığında kirayə ev axtarmağa başladıq və tapdıq; birotaqlı, zorla 60 metrə çatan xudmani və sadə bir ev. Hələlik bizimçün yaxşı idi. Zəhra və valideynləri cehiz almaq istəyəndə dedim ki, özünüzü çətinliyə salmayın, bir neçə ibtidai və sadə məişət əşyası bəsimizdir. İsrarla bildirdim ki, taxt, divan-kreslo və stol-stul almasınlar: "Allahın yeri oturmaq və yatmaq üçün çox gözəldir. Bizim və bəşəriyyətin bütün əcdadları yerdə oturub, yerdə yatıb və yerdə yeyib".

Zəhra istəyirdi ki, toy günümdə salona gedib üz-başımı səliqəyə salım, amma qulaq asmadım. Duş qəbul etdim, saç-saqqalıma jele vurub parıldatdım, daradım və Zəhranın getdiyi gözəllik salonuna doğru yola düşdüm. Xanım operator qapının ağzında dayanmışdı, məni görən kimi yaxınlaşdı, kamerasını qaldırıb dedi:

- Zəhmət olmasa, burada gəzişin və saatınıza baxın; yəni səbirsizliklə gəlinin gəlişini gözləyirsiniz.

Belə oyunlara hövsələm yox idi. Dedim ki, ehtiyac yoxdur. Nə qədər israr etdisə, razılaşmadım. Zəhra çıxandan sonra qız yenə ilişdi ki, gərək müəyyən ədalar çıxarasınız və mən film çəkəm. Yenə razılaşmadım. Axırda Zəhranın israrı ilə çarəsiz və könülsüz halda razılıq verdim.

Gül və lentlərlə bəzəmədiyimiz maşına oturduq. Toy əlamətləri olmayan adi bir maşın idi. Yola düzələn kimi qohum və dostlar öz maşınlarıyla ardımıza düşdülər. O qədər siqnal verdilər ki, əsəblərim pozuldu. Bu işləri əsla xoşlamırdım. Bilmirəm bu adət haradan bizim toylarımıza daxil olub.

Zəhraya dedim:

- İstəyirsən bunları azdırım?

- Yazıqdırlar. Toya gəliblər, şənlənmək istəyirlər.

Qulaq asmayıb qaza basdım və münasib bir vaxtda kiçik prospektə, oradan da bir küçəyə döndüm. Elə etdim ki, bizi itirdilər, Zəhra ilə birlikdə şəhərdə gəzməyə başladıq. Azan səsini eşidəndə məscidin önündə dayanıb:

- Gedək namaza, - dedim.

- Zarafat eləmə, Möhsün, - deyə təəccüblə mənə baxdı. – Bu paltarla və belə bəzənmiş halda məscidə girə bilərik?!

- Yox, olmaz, - başımı qaldırıb dedim. – Amma burada dayanıb azanı dinləyə və dua edə bilərik.

- Hə, razıyam. Nə dua edək?

- Dua edək ki, xoşbəxt olaq, xəstə və aciz olmayaq, xeyir işlər görək.

İkimiz də dua etdik. Sonra dedi:

- Dua edək, Allah bizə iki göyçək, əkiz qız versin.

Güldüm:

- İki niyə? Və niyə qız? Bilmirsən ki, mən oğlan istəyirəm?! – deyə o qədər bərkdən güldüm ki, yoldan keçənlər bizə baxdılar; utandım.

Yenə yola düzəlib Zəhranın atasıgilə getdik. Bir azdan o evdə Zəhranın əlindən tutub öz evimə aparacaqdım; toy gecəmizdə Zəhra ilə ikimizin qaldığı evə. Orada əvvəl namazımızı qıldıq, sonra Kumeyl duası, sonra gecə namazı, sonra da Əba hədisi. Axırda ikimiz də güldük.

- Əcəb gecədir toy gecəmiz! – dedim. – Hamısı dua, ibadət, namaz.

- Və "İnna ənzəlna" gecəsi, mələklərin mehribanlıq gecəsi...

# 11

İzdivac, toy, qonaqlıq və bu kimi işlərdən iki-üç həftə sonra öz rayonumuzun Nəcəf-əşrəf diviziyasında rəsmən işə başladım. Hər gün hərbi forma geyib Zəhranın müşayiətilə evdən çıxır, işə gedirdim. Onun da başı universitetə qarışmışdı. Hələ korpusun "gənc"i sayılırdım. Dedilər ki, gərək təkmilləşdirilmiş təlimlərdə iştirak etmək üçün Şiraza gedəsən. Şiraza getmək mənimlə Zəhra üçün müsibət oldu; altı ay ayrılıq, özü də ailə həyatının əvvəlində. Zəhra yalnız ağlayır, heç nə demədən təəccüblə mənə baxırdı. İsfahan yenə yaxşı idi, asanlıqla gedib-gəlmək olurdu. Şirazsa uzaq idi və hər iki həftədən sonra bir gün məzuniyyət verirdilər. Bu ayrılığı heç cür izah etmək və ya Zəhranı sakitləşdirmək olmurdu.

- Əzizim, mən də buna görə hərbçi olmaq istəmirdim də, - dedim. – Deyirdim ki, bu işin çətinlikləri, xüsusən də belə ayrılıqları var.

Suriyada müharibə başlamış, diviziyamızın uşaqlarından bir qrupu oraya getmişdi. Bir dəfə evimiz qonaqla dolu idi. Zəhranın dayı və xalaları nahara gəlmişdilər. Diviziyadan zəng vurub dedilər ki, bu gün Suriyadan bir şəhid cənazəsi gələcək. Narahat oldum. Zəhra narahatlığımı hiss edib soruşdu ki, nə olub. Məsələni ona söylədim. Qərara gəldik ki, süfrəni tez sərsin və mən tez dəfnə gedə bilim.

Yeməkdən sonra getdim. Diviziyanın önündə qələbəlik vardı. Bir tərəfdə dayanıb ağlamağa başladım. Zəhra mesaj yazdı ki, qadınlar tərəfdən səni görürəm, çox ağlama. Mən də heç nəyi nəzərə almadan yazdım: "Fərz elə ki, mən şəhid olmuşam. İndi neyləyərdin?"

Bu sözüm bomba effekti vermiş, Zəhraya çox pis təsir etmişdi. Zəng vurdu. Yalnız hönkürtü səsini eşidirdim. Çox dedim ki, nə olub, cavab vermədi, sonra da kəsdi. Soruşmağım mənasız idi. Zəhranın hətta şəhadətimi təsəvvür etməyə də dözümü yox idi. Mən ağılsız isə dəqiqəbaşı şəhadətdən danışırdım. Günah məndə də deyildi. Korpusun uşaqları Suriyaya getməzdən qabaq şəhadət mənimçün əlçatmaz bir arzu idi. İndi isə cənnət qapılarından biri üzümüzə açılmışdı, korpus uşaqları Suriyaya getmək üçün saniyələri sayırdılar.

Ondan sonra hərəm müdafiəçisi Şəhid Əlirza Nurinin məzarı toplantı yerimizə çevrildi. Zəhranın bu şəhidin məzarı başında dayanmadan ağlaması məni daha çox narahat edirdi. Şəhid olmaq barədə danışmağa cürət etmir, amma bunu çox düşünürdüm. O günlərdə Şirazda tank təlimində iştirak edirdim, hələ “gənc” pasdar idim və Suriyaya getmək fikrini başımdan çıxarmalı idim.

Həmin il novruz bayramında Şirazdan Nəcəfabada gəlib Zəhranı da özümlə apardım. Korpusun binalarında kiçik bir mənzili ikihəftəlik bizə verdilər. Çox gözəl keçdi. Əslində, bizim bal ayımız idi: çoxlu gəzmək, əylənmək, Hafizin məzarı başında oturmaq, Hafiz falına baxmaq, hər bir falda çıxan şeirlərin məzmunu olan gələcəyə ümid. Tətillərdən sonra Zəhra Nəcəfabada qayıtdı, mənsə iyunun ortalarına qədər qaldım, təlim bitəndən sonta Nəcəf-əşrəf diviziyasına qayıtdım. Zəhra bunu təntənə ilə qeyd edib bütün qohumları çağırdı. Bundan sonra həmişə bir-birimizin yanında olacağımıza görə sevinirdi.

Korpusun binasında mənzil kirayə etməklə maraqlandım, axırda verdilər. Kirayəsi öz kirayəmizdən çox az, eyni zamanda ev bir qədər böyük idi. Lakin böyük bir eybi bu idi ki, pilləkənlə dördüncü mərtəbəyə qalxmaq

lazımdı; yəni yetmiş dörd pillə, özü də gündə bir neçə dəfə. Axşamüstü evə gələndə Zəhra məni qapının ağzında şərbətlə qarşılayırdı. Çarə yox idi. Zəhra demişkən: "Kaçi heçnədən yaxşıdır!"

# 12

2015-ci il idi. Suriyaya getmək üçün ad yazdırmışdım. Heç kimə, hətta indidən həyəcanlanmasın deyə Zəhraya da deməmişdim. Diviziyamızdan hər bir qrup Suriyaya gedəndə pis olurdum. Ürəyimə dammışdı ki, mən də gedəsiyəm. Bilirdim ki, getsəm, şəhid olacağam, amma nə vaxt və necə olacağını bilmirdim. Ondan sonra namaz və ibadətlərim çox fərqləndi; daha dərin, daha yanıqlı oldu. Bu tezliyə gedəcəyimə ümidim yox idi, amma dua və nəzirlərimdən hansısa çox güclü oldu, dedilər ki, yavaş-yavaş hazırlaş, üç-dörd həftəyə gedirsən.

İnana bilmirdim. Həm sevinirdim, həm də narahat idim ki, bunu Zəhraya necə söyləyəcəyəm. Söyləmək tərzini yüz dəfə məşq elədim, hər dəfə də Zəhranın ağlamaqdan huşunu itirəcəyini düşündüm. Onun narahatlığına dözə bilmirdim, amma çarə yoxdu, bilməli idi; hərçənd hələ getməyimə bir həftə qalırdı.

Cümə axşamı günü axşamüstü şəhid məzarlığına getdik. Bir qədər dolaşandan sonra hərəm şəhidi Əlirza Nurinin məzarını ziyarət etdik. Qəbri üstə çox adam vardı. Bir qədər geridə çəmənlikdə, ağac altında oturub adamların azalmasını gözlədik. Fikirləşdim ki, məsələni indi desəm, pis olmaz. Qorxurdum ki, qəti şəkildə “yox” desin. Nəhayət, tərəddüdü kənara qoyub dedim:

- Bilirsən, Zəhra... Gözümüzü açıb-yumunca ömrümüzdən iyirmi neçə il getdi. Necə belə sürətlə getdiyini də anlamadıq. İyirmi ili də keçəcək, biz qocalacaq, sonra da öləcəyik. Bu məzarlıqda, əlbəttə, Şəhidlər gülzarında yox, daha uzaq bir yerdə bizə bir qəbir alacaqlar və Fatihə. Yəni dünyanın hər şeyi bitəcək. O

dünya qalacaq və sorğu-suallar başlayacaq. Gərək gördüyün və görmədiyin bütün işlərə görə cavab verəsən...

- Görmədiyimiz işlər üçün niyə cavab verməliyik? – deyə sözümü kəsdi.

- Görməli işlərimiz var ki, görmürük. Məsələn, bu Nəcəfabadda nə qədər ac var. Biz nə vaxt onlara nahar və ya şam verdik?! Bu qədər xəstə var; ailə-uşağı Allahın amanına buraxılmış bu qədər dustaq var. Nə vaxt onlara kömək etdik?! İslam dini təkcə namaz, oruc və digər fərdi ibadətlərdən ibarət deyil ki. Bunlar lazımdır, amma yardım etmədən, ehtiyaclılara əl tutmadan, aclara kömək etmədən qılınan namaz, tutulan oruc qəbuldurmu? – Bilmirəm! Biz də nə qazanırıqsa, öz ehtiyaclarımıza gedir.

- Yaxşı, nə edək, Möhsün can? Maaşımız azdır. Mən də tələbəyəm, işləyə bilmirəm ki, gəlirimizi artırıb digərlərinə də kömək edək.

Bu sözünü gözləyirdim. Tez xəmiri təndirə yapışdırmaq lazım idi!

- Bəli, düz deyirsən, - dedim. – Amma məzlumlara, çətinlikdə olanlara kömək etmək üçün başqa yollar da var. Bax... indi İsrail müsəlman Fələstin xalqının gününü qara edib. Qulağımızın dibində - Əfqanıstanda insanlar Taliban və əl-Qaidə tərəfindən parça-parça edilirlər. Suriyada da Amerika ilə İŞİD-in camaatın ailə-uşaqlarına nələr etdiklərini özün yaxşı bilirsən. Günahsız insanların ailələri o qədər qaçqınlıq, didərginlik və ölüm-itimlə üzləşirlər. Bunların hamısı zülmdür, vallah! Öləndən sonra Allah mənə: “Ağa Möhsün, İŞİD-in o qədər zülmü altında qalmış məzlum bəndələrim üçün nə etdin?” – deyə soruşsa, nə cavab verəcəyimi bilmirəm. Deyəcək ki, Möhsün, namazlarda bu qədər əyilib-qalxdın, Mənə bu qədər ibadət elədin, İmam Hüseynə ağladın, zalım

düşmənləri lənətlədin, amma qulağının dibində, Əfqanıstan və Suriyada müsəlman qardaş və bacıların kütləvi məzarlarda diri-diri basdırılanda eşqinin, sevimli Zəhranın yanında oturub şəhidlərə ağlamaqla kifayətləndin...

Zəhranın ağlamaq səsini eşidib susdum, qolumu çiyninə atıb dedim:

- Nə oldu, Zəhra? Mən ki pis bir söz demədim; niyə ağlayırsan?

Bir qədər sakitləşəndən sonra çadrasıyla gözlərini silib dedi:

- Get, Möhsün, get! Bilirəm ki, Suriyaya getmək istəyirsən. Ürəyin istəyirsə, get.

“Hə” cavabını almışdım; hərçənd bilirdim ki, söhbətin təsirinə düşüb, ürəkdən demir. Özümdən ixtiyarsız yaşlı yanağını öpdüm. Geri çəkilib dedi:

- Vay... nə edirsən?! Camaat görər.

- Görsünlər, - sevincək dedim, - məgər günah edirəm?! Həyat yoldaşımdır, öpmək istəyirəm.

Yenə öpmək istəyəndə ayağa qalxıb Şəhid Nurinin məzarı başına getdi. Mən də sevinc içində gedib yanında, hərəm müdafiəsi şəhidinin qəbri kənarında oturdum.

Zəhra özünü şəhidin qəbri üstə atıb dayanmadan və bərkdən ağlamağa başladı. Tanımayan olsaydı, elə bilərdi şəhidin həyat yoldaşıdır. Nə etdimsə, ayağa qalxmadı. Axırda özündən getdi, qadınlar ona şərbət düzəltdilər, üzünə gülab səpdilər. Qorxudan az qala infarkt olacaqdım.

Özünə gələndən sonra evə qayıtdıq. Onun qayğısına qalır, deyirdim: “Sən razı olmasan, getməyəcəyəm, burada yanında qalacağam. Ümumiyyətlə, Suriyanı yaddan çıxardıq!”

Gedib soyuducudan bir neçə gün qabaqkı qonaqlıqdan qalmış bananı gətirdim, ona uzadıb dedim:

- Ye, əzizim, ye, bir az özünə gəl.

Bananı aldı, amma yemədi. İsrar etdim. Hələ yarısını yeməmiş ürəyi bulandı, qaytarmaq istədi. Dedi ki, ürəyim bulanır, yeyə bilmirəm. Bananı aldım, dedim ki, uzan, bir az yat. Uzanan kimi yenə ürəyi bulandı.

- Bəlkə, hamiləsən, eşqim! – dedim.

Zarafat edirdim, amma ciddi qəbul edib anasına zəng vurdu. Anası ona dedi: "Mübarəkdir, qızım! Sabah get, analiz ver".

Ertəsi gün saatlıq məzuniyyət alıb tibb mərkəzinə getdik. Axşama qədər həyəcandan öldüm. Dua edirdim ki, analizin cavabı müsbət olmasın. Suriyaya gethagetdə hamilə olmamalı idi.

Axşamüstü ikimiz analizin cavabını almağa getdik. Mərkəzin önündə mənə:

- Burda gözlə, mən alıb gəlirəm, - dedi.

Qayıdanda mən hələ də motosikletdə oturmuşdum. Analizin cavabını mənə sarı uzadıb dedi:

- Heç nə yoxdur. Bizdə belə bəxt hanı?!

Sevindim. Gülümsəyib dedim:

- Allah nə istəsə, o da olacaq.

- Doğru deyirsən? - deyə motosikletin tərkinə oturdu. – Allah nə istəsə, sən də razısan?

- Əlbəttə. Mən Allahın razılığına razıyam.

Arxadan qollarını belimə dolayıb dedi:

- Onda sür... sür gedək anamgilə. Gərək onlara deyim ki, hamiləyəm.

Heyrətdən gözlərim bərəldi. İnana bilmirdim. Elə bildim zarafat edir. Vərəqi əlindən aldım. Həqiqətən, hamiləydi. Bilmirdim sevinim, yoxsa narahat olum. Ondan

qabaq hər dəfə uşaqdan söhbət düşəndə dua edirdim ki, tez hamilə olsun. Uşağı çox sevdiyimi bilirdi. İndi, Suriyaya getmək ərəfəsində isə Zəhraya nə deyəcəyimi bilmirdim. Çox sevinirdi. Bu, normaldı. Hər bir qadın ana olmaq istəyir. Sevincinə şərik olmalı idim. Dedim:

- Allaha şükür! Mən ata oluram!

Qışqırıb qaza basdım. Yolüstü bir qutu şirniyyat alıb anasıgilə getdik. Zəhranı düşürdüb dedim:

- Siz oğlumun şirniyyatını yeyincə qayıdacam.

Sevindiyindən gözləri işıldayırdı.

- İndidən hey "oğlum-oğlum" demə, bəlkə, qız oldu.

- Oğlan, ya qız – fərqi yoxdur; amma oğlan olsa, daha yaxşıdır, məni əvəz edə bilər.

Qaşları düyünləndi. Yenə işləri korlamışdım. Bu şirin anlarını korlamamalı idim. Bundan artıq qalmaq düzgün deyildi. Qaza basıb diviziyaya yola düşdüm.

Axşamüstü Zəhranın anasıgilə getdim. Hamı sevinirdi. Ata və anası məni təbrik etdilər. Gülüb özümü şən göstərməyə çalışdım. Əslində, sevinirdim; ata olurdum, bundan yaxşı nə ola bilərdi?! Amma getmək istəyirdim. O qədər duadan, nəzir-niyazdan sonra adım çıxmışdı və iki-üç həftəyə Suriyaya getməli idim. Bir an da getməməyi düşünməmişdim. Hətta Zəhranın hamilə olması da məni tərəddüdə salmamışdı. Bəlkə də, dönüşü olmayan yol idi. Şəhadət arzusuna nail olmağın yolu yalnız Suriyadan keçirdi. Gərək gedəydim. Ancaq ehtiyatlı da olmalıydım ki, Zəhra az psixoloji travma alsın və bu günlərin sevincini qaçırmasın.

Gecə evə qayıtdıq. Zəhra hələ fikirli idi. Sevindiyindən qərarsız olduğunu söyləmək olmazdı. Əslində isə belə olmalı idi. Bilirdim ki, mənim və getmək ehtimalım barədə fikirləşir. Özüm qəsdən bu haqda söz açanda dedi:

- Get, Möhsün. Mən nə sənə mane olub “getmə” deyə bilərəm, nə də “getdiyinə görə sevinirəm” deyə bilərəm. Yox, özümü aldada bilmərəm. Əsla sevinmirəm. Etiraf edirəm ki, həm də çox narahatam. Əgər bacarsaydım, nəyin bahasına olursa-olsun, qoymazdım; amma bacarmıram. Səni narahat görməyi də bacarmıram. Amma şəhid olmaqdan o qədər danışmısan ki, qorxuram getsən...

Kövrəlib danışa bilmədi. Qolumu boynuna salıb dedim:

- Qorxma, Zəhra can. Mən şəhid olmayacağam; ən azı bu dəfə. Uşağımız üçün olsa da, şəhid olmayacağam. Odur ki, qəm eləmə, arxayın ol. Ancaq xahiş edirəm ki, heç kimlə bu barədə danışma; xüsusən də ata-anamla. Getmək üçün onlarla mübahisə etmək istəmirəm. Yaxşı, eşqim?

- Yaxşı, - deyə başını yellədi. – Necə istəyirsən, elə olsun. Bəs uşaq necə? Onu da deməyim?

- İndi yox. Mən gedəndən sonra deyərsən, sevinərlər.

Söhbəti dəyişmək lazım idi. Əlimi qarnına qoyub dedim:

- Mənim bu balacam necədir? Təpik-məpik atmır?

Çətinliklə gülümsəyib başını aşağı saldı, sonra dedi:

- Əsla düşünməzdim ki, uşaqla da getmək istəyəsən. Heç olmasa, gözləyərdin, uşağımız dünyaya gələrdi...

- Əlbəttə ki, uşağımız dünyaya gəlməzdən qabaq qayıdacağam. Cəmi iki aydır. Əgər istəsən, uşaqdan sonra yenə gedərəm.

Dəcəl uşaqlar kimi ona baxdım, güldürmək istədim, amma gülmədi.

Ondan sonra getdiyim günə qədər Zəhranı şən görmədim. İçində kədər vardı, büruzə verməmək üçün əlindən gələni edirdi. Mən işdə olanda, həmişəki kimi, bir neçə dəfə zəng vurub deyirdi ki, səninçün darıxıram. Günləri sayırdı.

- Narahat olma, Zəhra, - dedim. – Bilirsən ki, həzrət Zeynəb səndən muğayatdır, səni özü kimi dözümlü edəcək. Bilir ki, sən razılıq verməsəydin, mən gedə bilməzdim. Zəhra, bil ki, mükafatını məndən çox həzrət Zeynəbdən alacaqsan.

Bu sözlərlə onu sakitləşdirirdim.

Ezamiyyətə iki gün qalmış elan etdilər ki, gedişiniz qətidir. Artıq qalanına da söyləmək olardı. Qalanı Zəhra ilə mənim ata-anamızdan ibarət idi, vəssalam. Ata-anasına dedik, hər ikisi şok oldu. Zəhra ağlamağa başladı. Atası deyindi:

- Yəqin ki, özün istəmisən, daha niyə ağlayırsan? Əvvəldən qoymamalı idin. İndi getmək vaxtıdır?!

Yazıq Zəhra dinmədi. Danışıb özünü müdafiə etməyə sözü yox idi.

Axşam atamgilə getdik. Öncədən anama demişdim ki, şama gələcəyik. Yeməkdən sonra anama dedim:

- Mən ikiaylıq ezamiyyətə gedirəm, sərhədə. Bir təlimimiz olacaq. Telefonlarımızı da alacaqlar, zəng vura bilməyəcəyəm. Zəhradan muğayat olun.

Anam etiraz elədi:

- Əşi, bu qədər ezamiyyət və təlim olar?! Nə xəbərdir?! Nə qədər İsfahanda qaldın, sonra altı ay Şirazda, indi də sərhəd! Bunlar lap ağını çıxarıblar, vallah!

- Hə, hərbçilik belədir də.

Atam çox da maraqlanmadı. Bilirdi ki, bu ezamiyyətlər təbiidir. Gecə getməzdən öncə atamı otağa aparıb məsələni söylədim. Çox etiraz elədi, israrla bildirdi ki, gərək getməyəsən:

- Bu gedişin qayıdış ehtimalı azdır. Özüm illərlə cəbhələrdə olmuşam, bilirəm ki, müharibə nədir və qorxmaq lazım deyil. Amma İŞİD-lə müharibə

qorxuludur; həm də çox qorxuludur. Çünki əsirliyi olmayan bir müharibədir.

Zarafata dedim:

- Narahat olma, ata, söz verirəm ki, güllələri ilə şəhid olmayım, yalnız əsir düşüm.

Gülüb ruhlandırmağa çalışdım. O isə üzünü turşudub yenə etiraz etdi. Lakin iş-işdən keçdiyini və geriyə yol olmadığını biləndə məni qucaqlayıb, yavaşca ağladı; səssiz ağlayan çoxlu atalar kimi; kişi ağlaması kimi.

Acı ayrılıq anlarından danışmayacağam: atamın, Zəhranın və onun ata-anasının ağlaması... Məni ötürənlər yalnız onlardı. Anamın yeri görünürdü. Bütün uşaqların anaları gəlmişdi, məndən başqa. Ona yazığım gəlirdi. Güclə özümü saxlayırdım ki, ağlamayım. Nəhayət, avtobus Tehrana doğru yola düzəldi və mən başımı öndəki oturacağın arxasına dayayıb ağlamağa başladım. Səssiz ağlamaq necə də çətindi!

# 13

Dostum Kumeyl Qurbani ilə yan-yana oturmuşduq. Mənəviyyatlı insan idi. Sonralar bildim ki, özümə çox oxşayır, xüsusən də şəhadət arzusunda; habelə namazlarını vaxtında qılmaqda, həmişə Aşura ziyarətnaməsi və digər dualar oxumaqda. Üstəlik, o da təzə evlənmişdi.

Tehranda qaldığımız bir-iki gündə Zəhraya tez-tez zəng vururdum. Məndən ötrü narahat idi və darıxırdı. Əmin olmasam da, əminliklə deyirdim ki, qayıdacağam. Deyirdim ki, səni və uşağımı tək qoymayacağam; cəmi 60 gündür, gözlərini yumub-açınca bitəcək.

Təyyarəyə minəndə axşamüstü idi. Üç-dörd saatdan sonra isə Dəməşq hava limanında idik. Axşam namazlarını orada qıldıq. Dedilər ki, bir neçə saatlığa ziyarətə gedib yenə hava limanına qayıdacağıq. Zeynəbiyyəyə doğru yola düzəldik. Bibimiz Zeynəbi ziyarət etməyə səbirsizlənirdik. Doyunca ağlayıb ziyarət etdik. Zərihdən yapışıb ağlaya-ağlaya şəhadət dilədim. İki saatdan sonra həzrət Rüqəyyənin hərəmində isə bu arzu zəifləməyə başladı. Rüqəyyənin balaca və sakit hərəmində Zəhranı (ə) və bətnindəki uşağı xatırladım. Mənim uşağım! Onu bir dəfə görmək istəyirdim. Hələ dünyaya gəlməmiş uşaq üçün darıxırdım. Özümdən acığım gəldi. İmanım yenə zəifləyirdi.

Hava limanına qayıtdıq. Növbəti təyinat yeri Suriyanın qərbindəki Həma vilayəti idi. İŞİD-lə orada vuruşmalı idik.

Orada dörd taqıma bölünəndən sonra döyüş yerinə getməyə hazırlaşdıq. Mən Kumeyllə və təxminən iyirmi nəfərlə birlikdə Şəhid Səccad Kərimi taqımına düşdük.

Təxminən səkkiz tankımız vardı. Real döyüş zonasında olduğuma inana bilmirdim.

Xanat bölgəsində qaldığımız üçüncü axşam əməliyyatımız başladı. On beş gün fasiləsiz vuruşduq. İŞİD güclü müqavimət göstərirdi. Tankdan atəş rekordunu yeniləmişdik. Təkcə bizim tankımız bir gecədə İŞİD-ə yüz mərmi atmışdı. Tankın komandiri Fərhadi idi; Sadiqi sürücü, mən də topçu. Bir gecədə yüz mərmi xəbəri əməliyyatdan sonra digər uşaqlara da çatdı. Hamı deyirdi ki, məgər bir topçu yüz mərmini topa qoyub atəş aça bilər?! Mən zarafata deyirdim: "Bəəli! Biz buyuq!"

Əməliyyatın ertəsi günü Hacı Qasim Süleymani və yoldaşları baxış keçirməyə gəldilər. Hamımız toplaşıb onu dövrəyə aldıq. Əməliyyatın adını "Fəthlər fəthi" qoyub dedi ki, sizin bu əməliyyatınız son bir neçə ayda bizim böyük əməliyyatlarımızdan biri oldu.

Bizdən iki nəfər ilk bir neçə gündə şəhid oldu. Biri Kumeyl Qurbani idi. Kumeyl mənəviyyatlı uşaq idi, Şəhid Əhməd Kazimini sevənlərdən və şəhadət arzulayanlardan idi. O, Xanat bölgəsində şəhadətə qovuşan ilk adam oldu; Həsən Əhmədi ilə birlikdə. Kumeylin getdiyinə inana bilmirdim; hərçənd ilk gündən üzünün nurundan bəlli idi ki, gedəsidir. Məndə isə şəhadət hissi yox idi, bilirdim ki, qalasıyam. İŞİD-dən və döyüşdən qorxmurdum, sadəcə, lazımi ixlasım yox idi. Mən anama yalan söyləmişdim, Suriyaya getdiyimi ona deməmişdim. Digər tərəfdən də bütün fikrim Zəhrada və gözlədiyimiz uşaqda qalmışdı. Bu isə hələ dünyaya bağlılıq demək idi. Dünyaya bağlı olanda da şəhadət sənə yaxın gəlmir. Gəlmədi də. Zəhraya bir neçə dəfə zəng vurmuşdum. Darıxır, ağlayırdı. Zəhranın darıxması və bəlkə, həm də anamın narazılığı mane olurdu. Anam heç harada olduğumu da bilmirdi. Ondan

icazəsiz gəlmişdim. Bu isə o deməkdi ki, sən İrana qayıdacaqsan.

Əlli yeddi gün Suriyada qaldıq. Bir-iki böyük əməliyyatımız oldu. İnana bilmirdim ki, döyüş yerindəyəm və tankdan təkfirçilərə atəş açıram. O vaxta qədər yalnız təlimdə şərti düşmənə atəş açmışdıq. Orada isə düşmən qarşındaydı. Hər halda, bitdi, ildırım sürətilə keçdi, dedilər ki, evinizə zəng vurun, deyin gəlirik. Mənsə zəng vurub Zəhraya dedim ki, ezamiyyətimi uzatdılar, bir müddət də qalacağam. Yazıq çox pis oldu. Guya ona sürpriz etmək istəyirdim. Gəlməyəcəyimi eşidəndə nə qədər ağladığını sonralar dedi.

Tehrana çatıb mobil telefonumu yandıran kimi zəng gəldi. Sönmüş telefonuma dayanmadan zəng vurur, mesaj yazırmış. Nəcəfabada çatana qədər çoxlu mesaj oxudum.

# 14

Ürəyim Suriyanın xarabalıqlarında qalmışdı. Qabaqkı Möhsün deyildim. Zəhra qabıqlanmış əlimə və yaxşı eşitməyən qulaqlarıma ilişmişdi. Boş versin deyə onu ələ salırdım. Axırda düzünü dedim: tankımıza mərmi dəymiş, dalğası məni tutmuş və bir neçə gün sanitar hissədə yatmışdım. Ona dedim ki, şəhid olmamağım üçün etdiyin dualar qəbul olub və sən Allah yanında məndən əziz imişsən.

Bir dəftər gətirib mənə göstərdi və dedi:

- Oxu! Bu dəftər İmam Hüseynə yazdığım məktublarla doludur. Ondan istəyirdim ki, səndən muğayat olsun, salamat qayıdasan.

Bir neçəsini ötəri oxuyub dedim:

- Ay səni! Deməli, şəhadətin sərhədinə qədər gedib-qayıtmağımın səbəbkarı sənsən!

- Biz buyuq! – deyə güldü.

- Ora gedənə qədər İŞİD-lə vuruşmağın nə olduğunu bilmirdim. Bilmirdim ki, şəhid olmaq necə də asandır! Şəhadət bir addımlığımdaydı, amma əlimə keçmədi. Xoş Kumeyl Qurbaninin, Həsən Əhmədinin və digər bir neçə nəfərin halına! Yəqin ki, dəfnlərində iştirak edib xalq üçün necə əziz olduqlarını gördün. Heyif... heyif...

Bir neçə dəfə ah çəkdim. Zəhra heç nə demədən qalxıb mətbəxə getdi. Bildim ki, bu sözləri deməməli idim. Gedib yanında dayandım, əlimi çiyninə qoydum. Qaşqabaqlı idi.

- Mən bir gündür yanına gəlmişəm, qaşqabağını sallama, - dedim.

- Özün demiş, bir gündür gəlmisən, - deyə dönüb mənə baxdı. – O qədər təklikdən, gözü yolda qalandan və

salamatlığın üçün dua edəndən sonra gəlib deyinirsən ki, niyə şəhid olmamısan. Şəhid olaydın! Sənə kim mane oldu ki, indi gəlib mənə deyinirsən?

- Nə deyinməyi, əzizim?! Öz həsrətimdən danışıram. Əgər eşitmək istəmirsənsə, yaxşı, daha heç nə deməərəm.

Söz verdim ki, daha şəhidlikdən danışmayacağam. Bu, çətin idi, xüsusən də şəhidlərin, üstəlik, hərəm şəhidlərinin, Suriyaya, xanım Zeynəbin həreminə gedib oradan da birbaş Kərbəlaya qanad çalmış, Kərbəla şəhidlərinə qonaq olmuş şəhidlərin məzarını ziyarət edəndə; Kumeyl kimi, Həsən kimi...

Çantamı götürdüm. Zəhra üçün aldığım hədiyyələrin çantasını axşamdan bəri açmamışdım. Çoxlu sədəf, balıqqulağı, dəniz ulduzu və digər sahil əşyalarını önünə tökdüm. Təəccüblə mənə baxıb soruşdu:

- Bunlar nədir, Möhsün?! Sən Kiş adasına getmisən, mənə deməmisən?!

- Nə Kiş?! – gülüb dedim. – Aralıq dənizinin sahillərinə getmişdik. Yerin məlum!

Aralıq dənizini gördüyümüzə inanmadı.

- Laziqiyyə şəhəri dənizin kənarındadır, - dedim. – Bir neçə gün orda qaldıq.

Dərin nəfəs alıb gülümsədi. Axırıncı gün Dəməşq bazarından, həzrət Rüqəyyənin məqbərəsinin dar və ensiz küçələrindən ona ərəb mantosu, bir neçə kofta və xırım-xırda əşyalar almışdım. Onları görüb sevindi. Məndən söz aldı ki, Suriyanı yaddan çıxarım, daha şəhadətdən danışmayım, həyatımdan bərk yapışım və uşağımızın yolda olduğunu unutmayım.

Az sonra məlum oldu ki, uşaq oğlandır. Adını Əli qoyduq. Dünyaya gələndən sonra bir həftə aparatda qaldı.

Zəhra çox narahat və qərarsız idi, uşağının birinci gündən yanında olmasını istəyirdi.

Əlinin ailəmizə gəlişi ilə həyat hamımız üçün şirin və sevimli şəkildə davam etməyə başladı. Mən bir müddət Suriya fikrindən, müharibə və şəhadət düşüncəsindən uzaqlaşdım; baxmayaraq ki, məzarlıqda şəhidlərlə görüşlərim yerindəydi. Hər həftə park yerinə şəhid məzarlığına gedir, hətta Əlini də bələkdə aparırdıq. Problemimiz təkcə motosiklet idi, üçlükdə harasa gedə bilmirdik. Beynimə avtomobil almaq fikri düşdü. Pulunu Allah düzəltdi. Ata-anaların köməyi, bir qədər də borc və korpusdan kreditlə bir-iki həftəyə ağ RD avtomobili qapımızda dayandı. Biz artıq üç nəfərdən ibarət, avtomobili və çoxlu borcu olan xoşbəxt bir ailəyə çevrildik.

Ərbəin yürüşünə getmək qərarına gələndə xoşbəxtliyim daha da təkmil oldu. Bu səadətin mənə qismət olduğuna əsla inana bilmirdim: imamın, Kərbəla şəhidlərinin, Nəcəf-əşrəfin ziyarəti. Arzu edirdim, amma getmək fikri beynimdən də keçməmişdi.

Yeddi nəfər idik: Nəcəfabaddan mən, Hadi Əfşari, Hüseyn Əliməhəmmədi və Mustafa Məhəmmədi bir maşınla, Zərrinşəhrdən də Xudadad, Təvəssüli və Novruzi bir maşınla Çəzzabə gömrüyünə sarı yola düşdük. Dayanmadan sürüb axşam İzəyə çatdıq və Xudadadın xalası oğlugilə getdik. Böyük həyəti toyuq və xoruzla doluydu, bir neçə qoyun da vardı. Bir qoyunu yerə yıxıb qurban kəsmək istəyirdi, Hadi ilə mən qoymadıq. Dedi: “İstəyirəm İmam Hüseynin ziyarətçisinə qulluq edim, kabab bişirim. İraqda belə şeylər olmayacaq”.

Çətinliklə də olsa, sözümüzü yeridə bildik. O, qoyun əvəzinə iki xoruz kəsib dadlı xörək bişirdi. Yeməkdən

sonra getmək istəyəndə qoymur, orada qalmağımızı istəyirdi. Bizsə razılaşmayıb yola düzəldik.

Sübhün ala-toranlığında Çəzzabəyə çatdıq; sərhədin 2-3 kilometrliyinə. Maşınlarımızı saxlayıb gömrüyə getdik. Sərhəd yoxlamaları bitəndən sonra ayağımızı İraq torpağına qoyanda məndə qəribə hiss yarandı. Harada olduğuma əsla inana bilmirdim. İraq – yəni Kərbəla və Nəcəf, İmam Əli (ə) və İmam Hüseyn (ə) deməkdi.

Sübh namazımızı cəm halda qıldıq. Gecədən bəri kələ-kötürlü yollarda maşında olsaq da, heç kim özünü yorğun hiss etmirdi. Nəcəfə getməyə maşın axtarmağa başladıq. Oradakı avtodayanacaqda hər növ maşın vardı: sedan, minivan, mikroavtobus, hətta ontonluq yük avtomobilləri və TIR-lar. Əhməd TIR-la getməyi təklif etdi. Dedik:

- TIR?! Niyə ki? Məgər maşın başımıza qəhətdir?

- Bir neçə üstünlüyü var, - dedi. – Əvvəla, ucuzdur, pulumuza qənaət etmiş olacağıq. İkincisi, camaatla birgə gedəcəyik. Üçüncüsü, çətindir və bunun da daha çox savabı var.

Heç kim etiraz etmədi. Çətinliyi bizi daha çox qane edirdi. Nərdivan gətirdilər, TIR-ın arxasına qalxdıq. Sayımız təxminən əlli nəfər olanda yola düşdü. Yolda peşman olduq. Sürücü qaza basır, yolun çala-çuxurları bağırsaqlarımızı bir-birinə qarışdırırdı. Sanki zəlzələ baş verirdi. Bədənimiz ağrıyırdı. Çatanda müharibədən qayıtmış adamlar kimi olmuşduq. Yolda o qədər sıxlıq vardı ki, Nəcəfə 7 km qalmış bizi endirdi. Yolun qalanını ya piyada getməli idik, ya da minik avtomobili və ya minivanla. Bir minivan tutub bir saatdan sonra Nəcəfə çatdıq. Yorğunluqdan ayaq üstə qalmağa və yol yeriməyə taqətimiz qalmamışdı. Bir qədər istirahət etməli idik, amma heç kim razılaşmadı, hamı dedi ki, əvvəl ziyarət.

Həzrət Zəhra (ə) həyətindən hərəmə daxil olduq. Ayrı-ayrı getdik, danışdıq ki, bir saatdan sonra həmin həyətdəki içməli su kranlarının yanına qayıdaq. İmamın zərihi yanında ziyarət, dua və dərdləşmə o qədər ləzzətli oldu ki, bir saat ildırım sürətilə keçdi. Yenə qalmaq istəyirdim, amma bilirdim ki, uşaqlar gözləyirlər.

Qərara gəldik ki, yatmağa yer tapaq. Dünəndən yatmamışdıq. Bayıra çıxıb yatmağa yer axtarmağa da taqətimiz qalmamışdı. Həyətdə sakit bir yer tapıb sübh azanına qədər yatdıq. Namaz və ziyarətdən sonra təklif etdim ki, sübh ikən tarixi Vadissalam məzarlığına gedək.

Ağ bir minivana mindik. Vadissalamın önündə böyük bir LCD televizoru quraşdırıb məhərrəmə dair başyarma filmləri göstərilirdi. Pis film idi, biz şiələrin abır-heysiyyəti ilə oynayırdı. Yaxınlaşıb sınıq-salxaq ərəbcəmizlə etiraz etdik. Yaramazın vecinə də deyildi. Pultu götürüb yerə çırpmaq istəyəndə Xudadad qoymadı, qolumdan tutdu və məzarları ziyarətə getdik.

Günorta namazlarımızı Kufə məscidində qıldıq; hansı ki, orada həzrət Əlinin (ə) xatirələri vardı, bizimçün yadigar qoymuş, axırda orada da şəhadətə qovuşmuşdu.

Axşam Nəcəfə qayıtdıq. İmamın məqbərəsinin yaxınlığında bir ərəb kişi önümüzü kəsib bizi evinə dəvət etdi. Nəcəf əhalisi yolda dayanıb ziyarətçiləri evlərinə qonaq aparırdılar. Mən razılaşmayıb uşaqlara dedim:

- Ehtiyac yoxdur. Dünənki kimi həyətdə yatarıq.

- Nədir? Olmaya qorxursan ki, qollarımızı bağlayıb bizi İŞİD-ə təhvil verərlər? – Xudadad dedi.

- Bunların özlərinin yeməyə bir şeyləri yoxdur. Arvad-uşaqlarının boğazından kəsib İmam Hüseyn (ə) ziyarətçilərinə qulluq edirlər. Yazıqdırlar, vallah!

- Bunlar imamın eşqi ilə zəvvarlara xidmət edirlər; hərə öz imkanı həddə. Gəl gedək, qəlbini qırmayaq.

Nəhayət, ərəbin evinə getdik. Balaca köhnə ev idi, divarlarına dini posterlər və qara parçalar vurmuşdu. Şam yeməkləri toyuqplov idi. Yeməkdən sonra tünd ərəb çayı gətirdilər. Ev sahibindən vayfayın parolunu öyrənib Zəhra ilə yazışdım. Oğlum Əli üçün çox darıxmışdım.

Ertəsi gün sübhdən Kərbəlaya piyada yürüşümüz başladı. Bu yol necə də əzəmətli idi; İran, İraq, Əfqanıstan, Pakistan, Banqladeş və digər yerlərdən kiçikli-böyüklü, qadınlı-kişili, xəstə-sağlam adamla dolu. Yolun əvvəli danışıb-gülməklə keçdi. Çox tez özümə gəlib dedim:

- Uşaqlar, danışmaq yetər! Ancaq zikr və dua!

- Gözlərimiz üstə, ya şeyx! – deyə Hadi gülümsədi.

İki gündən sonra Kərbəlaya çatdıq. Camaat bir-birinə qarışmış sel dalğalarına bənzəyirdi. Hərəmə girə bilmirdik. İnsan səddi yolu bağlamışdı. Beynəl-hərəmeyndə çətinliklə yer tapıb oturduq. Yorulmuşduq, bel və ayaqlarımız ağrıyırdı. Ziyarətnamələri çıxarıb oxumağa başladıq. Gecə Xudadad dedi:

- İnana bilirsiz ki, biz Kərbəladayıq; illərdir hər məhərrəmində baş və sinələrimizə vurduğumuz Kərbəlada? Aşura və Tasua axşamlarında bütün fikrimiz və işimiz "ya Hüseyn"dən ibarət olub. İndi Hüseyn burdadır, bizdən bir neçə metr aralıda.

Göz yaşlarımı silib kövrək halda dedim:

- Keçən il məhərrəmlikdə Suriyadaydıq. Necə də gözəl keçdi! Əsl şəhadətin yeri idi, amma qismət olmadı, şəhid ola bilmədik.

- Əşi, sən də həmişə şəhadətdən danışırsan. Bir dəfə olmadı deyəsən ki, yaşamaq istəyirəm; xanımımla; uşağımla; dostlarımla.

- Mən ailə-uşağımı çox sevirəm. Amma gərək Suriyaya gəlib İŞİD-in camaata nə etdiyini görəydin. Oradakı müsəlmanlar elə bil ağac yarpağıdırlar; eləcə tökülürlər yerə. Əgər biz iranlılar onlara kömək etməsəydik, Allah bilir, necə cinayətlər törədilərdi! Hərdən fikirləşirəm ki, görəsən bu qədər namaz, oruc, ziyarət və ibadət qiyamət günü bizim köməyimizə gələcək, ya yox. Görəsən, günahsız insanlara qarşı bu qədər ədalətsizlik və cinayət baş verdiyi halda, Allah bunları qəbul edəcək, ya yox.

- Gedib vuruşmağın çox yaxşıdır. Bunun savabı şəhid olmaqdan çoxdur. Qismət olsa, bir də gedərsən. Daha doğrusu, bir də birlikdə gedərik, - deyə Xudadad güldü.

- Hə, əlbəttə. Mən yenə getmək istəyirəm. Adam orada çürümür, ölümdən qorxmur, yoxsulluq və pulsuzluq fikri çəkmir, dünya və axirəti üçün narahat olmur. Heç nəyin, hətta ölməyin də fikrini çəkmir. Ölmək, yəni şəhid olmaq arzu olur; elə bir arzu ki, ona qovuşmaq çox gözəldir və o, sənin biraddımlığındadır. Şəhadət bu qədər ləzzətli olanda, Allaha qovuşmaq, Allahın ay üzünü görmək bu qədər əlçatan olanda insan özünü xoşbəxt hiss edir.

- Hamı şəhid olub cənnətə getməli deyil ki, - deyə Hadi bildirdi. - Cənnətə getməyin başqa yolları da var, Möhsün can. Məsələn, o yollardan biri budur ki, elə indicə qalxıb bir restorana gedək, yaxşı bir şam yeməyi yeyək, sonra da bir otelə gedib doyunca yataq.

Uşaqlar Hadinin sözlərinə güldülər. Hadinin zarafatı Xudadadla mənim ciddi müzakirəmi pozdu. Ayağa qalxıb dedim:

- Gedək ziyarətə. Gərək birtəhər yol açıb hərəmin içinə girək. Mən imamın zərihini görməyincə rahatlaşmaram.

Lakin zərihi görəndən sonra da rahatlaşmadım, hərəmdə olduğum bütün müddətdə ağladım. İmam Hüseynə (ə) dedim ki, ürəyim bacın Zeynəbin və nazlı qızın Rüqəyyənin yanında qalıb. Dedim ki, bir də qismət elə, Suriyaya gedib ürəyimi götürüm.

Bir neçə gün dua və ibadətlə keçdi və qayıdış vaxtı gəldi. Bazara gedib hədiyyə vermək üçün bir qədər təsbeh, möhür və digər əşyalar aldıq. Oğlum Əliyə iki dəst paltar da aldım.

# 15

Həyat öz axarıyla davam edir, mənimsə bu axardan xoşum gəlmirdi: hər səhər formamı geyib işə getmək, işdən qayıtmaq, Əlinin ad günü, kişilər bayramı, qadınlar bayramı, toyumuzun ildönümü, qonaq getmək, qonaq çağırmaq, yemək, yatmaq, ertəsi gün də yenə eyni işlər. Bu dediklərim biz insanların həyatının bir parçasıdır. Çarə yoxdu, onlardan qaçmaq mümkün deyildi, amma mən bu həyatı sevmirdim. Həyatın acılıqları ilə bərabər bütün bu gözəlliklər bizim həyatımızın bir hissəsini təşkil edirdi, mənsə adi həyatdan daha çoxunu istəyirdim. Adətlərə alışmamışdım, onlar məni qane etmirdi. Sanki bu yeknəsəq həyatda nəsə itirmişdim, axtarıb tapmalı idim. O da buradakıların fövqündə duran məsələlər barədə düşünməkdən başqa bir şey deyildi. Bütün fikirlərim sərhədlərin o tayına, həyatın öz axarıyla davam etmədiyi yerə - Suriyaya gedirdi. Orada həyat əzab-əziyyətdən ibarət idi. Bədbəxtlik, fəlakət və ölüm orada sinəsini qabağa verib meydan sulayırdı. Suriya xalqı doğum günlərini qeyd etməli, uşaqları məktəbə gedib oynamalı olan insanlardan idilər. Dünyanın bütün ata-anaları kimi oranın ata-anaları da övladlarını qucaqlarına götürməli, nisbi sakitlik və asayişi hiss etməli idilər. Onların da başlarını rahat şəkildə yastığa qoymaq, həyatdan pay almaq haqları vardı. Amma onların heç bir haqları qalmamışdı. Orada həyat ölümdən başqa bir şey deyildi. Suriya xalqının payına ölüm haqqı düşmüşdü. İŞİD İslam, Allah və peyğəmbər adları altında nisbətən modern bir ölkəni xarabalığa çevirmişdi. Heç bir din və məzhəb belə cinayətlərə icazə vermirdi, onlarsa İslam və Quran adıyla

bu işləri görürdülər. Sülh, mərhəmət və mehribanlıq dini olan İslam dünyanın gözündə müharibə, qətl və qəddarlıq dininə, günahsız insanların başlarını kəsmək dininə çevrildi; özü də Məhəmmədin Allahının adıyla. Onları yaxından görmüş, günahsız insanların fəlakətini bütün vücudu ilə duymuş mən sakit oturub həyatımı yaşaya və "mənə nə" deyə bilməzdim. Bəs mənim dini vəzifəm hara getdi? İslam ümmətinin min parçaya bölünməsi necə olsun? Hələ İslam dini və İslam ümməti bir kənara, insanlıq vəzifəsi nə olsun? Məgər mən insan deyiləm?! Məzlumlara kömək etməyi və zalımlara qarşı vuruşmağı əmr edən onlarla ayə və hədis oxumuşdum. Məgər İŞİD zalım deyildi?! Məgər İŞİD-in himayədarları zalım deyillər?! Əgər mən kafir, mən namüsəlman öz həyatımı yaşayıb "mənə nə" desəm, Sədinin bu şeirini ürəyimin harasına qoyaram:

Bir bədən üzvüdür bu bəni-adəm,
Eyni bir cövhərdən yaranmış aləm.
Bir üzvü dərdlərə salsa ruzigar,
Tutmaz başqa üzvü yerində qərar...[1]

Bizim heç bir üzvümüz ağrımırmı?! Biz niyə belə rahatıq? Eşitmişəm ki, bu şeiri Birləşmiş Millətlər Təşkilatının divarına da yazmışlar. Yəni İŞİD-in himayədarları da insanlıq jestini xoşlayır, insanlığın ortaq dərdindən danışmağı sevirlər. Lakin onların heç biri zavallı Suriya xalqının dadına yetmir. İndi ki biz gedib İŞİD-i öz yerində oturda və o torpaqların sakinlərini xilas edə bilirik, niyə getməyək?!

---

[1] Şeirin tərcüməsi Məmmədağa Soltana məxsusdur. (müt.)

Mən getməli idim. Mən qalıb yaşayan adam deyildim. Ata-anama, Zəhraya və oğluma qarşı bütün sevgimə rəğmən, ürəyim narahat və qərarsız idi. Düşünürdüm ki, gərək bir yol tapıb gedim. Zəhradan razılıq almaq çox da çətin deyildi. Atamı da razı sala bilərdim. Ancaq anam heç vaxt razı olmazdı, mən də onun razılığı olmadan getmək istəmirdim. Qorxurdum ki, onun razılığı olmasa, Allah yolunda cihadım nöqsanlı olar. Odur ki, ata-anamı razı salmaq üçün yol axtarırdım.

Mübarək ramazan ayı gələndə, mənəviyyat və dua ab-havası yarananda beynimə kreativ bir fikir gəldi. Bu barədə heç Zəhra ilə də danışmadım. Qərara gəldim ki, atam və anamla birlikdə Məşhədə gedək. Ramazan ayına az qalırdı, ziyarət səfəri üçün ən əlverişli vaxt idi. Öncədən ikihəftəlik məzuniyyətimi yazıb verdim. İstəyirdim ki, ongünlük niyyətlə Məşhəddə qalıb orucumuzu da tutaq. Səfərin ən yaxşı hissəsi Qədr gecələri oldu. Biz onda ağa İmam Rzanın (ə) hüzurundaydıq. On-on bir gecəlik otel də bron etdim. Çox da ulduzlu olmasa da, pis deyildi.

Qatara bilet aldım; bütöv bir kupe. Əşyalarımızı hazırladıq. Vağzala getmək istəyəndə Zəhraya dedim:

- Eşqim, biz səkkizinci imamı ziyarətə gedirik. On gün kef eləmək istəyirik, mənəvi kef; günahlar üçün tövbə, uğur və səadət üçün dua. Bu mənəvi səfərin əvvəlində səndən üzr istəyirəm; bütün borclarıma, kobudluğuma, səhvlərimə görə məni bağışla, Zəhra!

Mənə eşqlə baxıb dedi:

- Bu nə sözdür, əzizim? Mən səndən pislik görməmişəm. Əgər nəsə olubsa da, xörəkdəki duz qədər olub.

Səfərimiz bu aşiqanə cümlələrlə başladı.

Məşhəddə işimiz bundan ibarət idi: hər axşam iftardan sonra hərəmə gedir, Came Rəzəvi həyətində oturub ağa Qiraətinin söhbətini dinləyirdik. Amma Əli sakit durmurdu. Təzə yeriməyə başladığı üçün gəzmək, camaatın arasında dolaşmaq istəyirdi.

Bir gecə hərəmdən qayıdırdıq. Yolun kənarında bir qadın oturub nəstəliq xətti ilə cümlələr yazırdı. Zəhra dedi:

- Möhsün, gəl hərəmiz bir cümlə deyək, yazsın, otağımıza yapışdıraq, kitab şkafının yanına.

Yaxşı təklif idi. Atamla anama dedim:

- Əvvəl siz deyin.

Hər ikisi gülümsədi.

- Mən nə deyim?! – deyə anam güldü. - Siz cavansız, bizim vaxtımız keçib.

Atam da razılaşmayıb dedi:

- Fərz edin, bu, bir yarışdır. Hansınız daha yaxşı cümlə desə, udacaq.

Məsələ getdikcə ciddiləşirdi. Mən kağıza: "O günlərdə şəhadətin darvazası varımızdı, indi isə ensiz dar cığırı. Lakin hələ də şəhadət imkanı var və ürəyi təmizləmək lazımdır" - yazıb xəttata verdim.

Atam, anam və Zəhra – üçü də mənə çəp-çəp baxdı, amma heç biri heç nə demədi. Zəhra kağızına yazdı: "Mən yorğunun adından sevgiliyə deyin: Qəlbimə sənin eşqindən başqa bir eşq sığmaz!"

O da kağızı xəttat qadına verdi. Anam mənə elə təbəssümlə baxdı ki, yəni öyrən, Möhsün. Bildim ki, atamın keçirdiyi bu yarışda Zəhra böyük fərqlə məni udub. Qadın hər ikisini örtüklü kağız üzərinə yazıb bizə verdi. Sənətkar qadına iyirmi min tümən verdim və otelə yola düşdük.

Çatan kimi Zəhra elektrik çaydanı doldurub işə saldı, çay hazırlayıb jurnal masasının üstünə qoydu. Sakit halda çayımızı içdik. Suriya barədə söz açıb onlardan razılıq və halallıq almaq istəyirdim. Elə bu fikirdə ikən anam soruşdu:

- Nə olub, Möhsün? Gəmilərin batıb?

- Gəmilərim... hə, batıb, - dedim, - amma döyüş gəmilərim salamatdır, Suriyaya gedirlər; İŞİD-lə vuruşacaqlar; bibimiz Zeynəbin qəlbi naminə.

Zəhra məsələnin nə yerdə olduğunu anladı, dərin köks ötürüb dedi:

- Sənin və bibin Zeynəbin qəlbinə qurban!

- Sən bir dəfə getmisən, - deyə atam qaşqabağını salladı. – Qoy başqalarına da növbə çatsın.

- Atan düz deyir, oğlum, - anam dilləndi, - sən həzrət Zeynəbin yanında üzüağsan.

- Siz Məşhədə ağanın hüzuruna gəlməkdən doyursunuz?! – dedim. – Ora da bura kimidir. Bu fərqlə ki, siz burada rahat və təhlükəsiz halda ziyarətə gəlirsiz, orada isə nəinki belə rahatlıq yoxdur, hətta tez tərpənib Suriyaya kömək etməsək, həzrət Zeynəbin və Rüqəyyənin hərəmlərindən əsər-əlamət qalmaz, oraları yerlə bir edərlər.

Bu sözdən sonra heç biri dinmədi. Onluğa vurmuşdum. Deməyə sözləri yox idi. Cəld xəmiri təndirə yapmalı idim.

- Suriyaya ad yazırlar. Mən də adımı yazdırmaq istəyirəm. Mən...

- Dedim axı, - deyə atam sözümü kəsdi, - sən bir dəfə getmisən. İndi mənim növbəmdir. Mən getmək istəyirəm.

Üçümüz də təəccüblə atama baxdıq. Gülümsəyib dedi:

- Nə var? Məgər mən hərəm müdafiəçisi ola bilmərəm? Yaddan çıxarmayın ki, mən illərlə bəasçilərlə vuruşmuşam. İndi də gedib İŞİD-lə vuruşaram.

- Lazım deyil! – anam üzünü turşudaraq dedi. – Sən də vəzifəni yerinə yetirmisən. Bədənin qəlpəylə doludur. Bu halda müharibəyə gedə bilərsən?! Müharibə cavanlar üçündür.

- Anam doğru deyir, ata, - dedim. - Müharibə cavanlar üçündür. Sən burda qalmalı, mən gedib-gələnə qədər anama, gəlininə və nəvənə baxmalısan.

Həmin axşam Suriya söhbəti uzandı. Zəhra isə sakit qalır, bizim söhbətimizə qoşulmurdu. O, mənim fikrimi bilirdi, mən də onun. Axırda anam mənə söz çatdıra bilməyib Zəhraya dedi:

- Qızım, sən də bir söz de.

- Mən nə deyim, ana?! Biz bu barədə sözlərimizi demişik.

- Yəni sən də razı deyilsən, düzdür?

- Yox, ana can, - deyə Zəhranın səsi bir qədər titrədi. – Möhsünün razı olduğuna mən də razıyam. Necə istəyirsə, elə də olsun. Bilirəm ki, Möhsün Allahın razılığından başqa bir şey istəməz.

Kaş utanmayaydım elə oradaca Zəhranı qucaqlayıb öpəydim! Çarəsizlikdən olsa da, ürəyimin sözünü demişdi. Anam dedi:

- Vay... Zəhra can, axı sən niyə?! Bu uşaq nə danışdığını bilmir. Əgər gedib, Allah eləməmiş, qayıtmasa bəs?! Onda başımıza haranın külünü tökərik?!

- Söz verirəm ki, tez və sağlam qayıdacağam. Amma əsir düşsəm, bir qədər gec qayıda bilərəm. Hər halda, söz verirəm ki, qayıdacağam.

Üçü də sakit qaldı. Atamla Zəhra məqsədimi anladılar. Anamsa nə dediyimi başa düşmədi.

Həmin axşam bir saat danışdım, çoxlu dəlil söylədim, axırda ata-anam adımı yazdırmağa razılıq verdilər. Atamsa hər dəfə deyirdi: "Səni aparmayacaqlar; sən bir dəfə getmisən".

Bir az qorxdum ki, atam etiraz edər və məni aparmazlar. Elə də oldu. Mənim heç adımı da yazmadılar.

# 16

Nə qədər israr etsəm də, dedi:

- Olmaz, ağa Hücəci. Siz bir dəfə getmisiniz.

- Bəyəm bu, pisdir? Deməli, təcrübəm var, daha yaxşı vuruşaram.

- Digərləri də adamdırlar, onlar da getmək istəyirlər. Olmaz ki, biri iki dəfə getsin, biri isə bir dəfə də göndərilməsin.

Adları yazan işçi tərs və inadkar adamdı. Nə illah etdimsə, adımı yazmadı. Axırda da dedi:

- Ağa Hücəci, sənin arvad-uşağın var. Hələ gözlə, uşağın böyüsün, sonra. Onda yenə növbən gələr.

Nə o, söz eşidirdi, nə məm. O qədər beyninə işlədim ki, axırda adımı yazıb dedi:

- Başımı keçəl elədin, Hücəci! Adını yazıram. Get, məndən əl çək. Amma gedəcəyinə ümidin olmasın.

Sevindim. Bu da yaxşı idi; yəni Suriyaya göndərilmək işimin 50 faizi düzəlmişdi. Qalan yarısı üçün də Allah kərimdi.

Ondan sonra işim ağlayıb yalvarmaqdan, dua etməkdən ibarət oldu. Qəribə haldaydım; Bərzəx halında. Cavabın nə olacağını bilmirdim. İstəyirdim ki, dua və nəzir-niyazla Allahın canına düşüm, Özü işimi düzəltsin. Yeməyə iştahım qalmamışdı. Arıq idim, bir az da arıqlamışdım. Zəhra məndən ötrü narahat idi. Artıq o da mənimlə birgə dua edirdi ki, işim düzəlsin. Bir növ empatiyaydı, məcburiyyətdən olsa da. Ondan sonra Zəhra mənimlə bərabər öz ata-anası və mənim ata-anamla danışır, öz razılığını dilə gətirirdi.

Atamın torpağı vardı. Onu mənim adıma keçirib dedi ki, imkan olanda tikərsiniz. Zəhra təklif etdi ki, onu satıb atasıgilin yaxınlığında daha ucuz qiymətə torpaq alaq. Pulun qalanı ilə tikintiyə başlaya bilərdik. Ondan sonra bələdiyyədə sənəd işlərinin ardınca düşdük. Çox vaxt Zəhra gedib-gəlirdi. Bir ay keçməmiş usta və fəhlələr işə başladılar. Evimiz olacağına inana bilmirdik. Atamla mən də işləri ilə məşğul olurduq. Suriyaya getməzdən qabaq tikintini bitirmək istəyirdim. Qorxurdum ki, adım çıxar, amma evdə iş bitmədiyinə görə gedə bilmərəm.

Hər gün işdən gələn kimi günorta yeməyimi yeyər-yeməz tikintiyə gedirdim. Həyətin hasarlarını atamla mən hördüm. Özümə görə bənna olmuşdum. Əllərim qabar olmuşdu. Zəhra hər gecə yatmazdan qabaq əllərimə yağ sürtürdü. Kredit də alıb evin tikintisini sürətlə tamamladıq.

Xəbər gəldi ki, bizim tabordan iki tank topçusu Suriyaya gedəcək, kim olduqlarını isə demədilər. Bu o deməkdi ki, iki nəfəri növbədənkənar aparacaqlar. Çox həyəcanlı idim. Qorxurdum ki, o iki nəfərdən biri mən olmaram. Maraqlandım, dedilər ki, Əhməd Əkbərian özüylə aparmağa adam axtarır. Saatlıq məzuniyyətdə olsam da, tez özümü Əkbərianın ofisinə yetirdim. Ofisin önündə sıxlıq vardı, iyirmidən çox adam dayanıb növbə gözləyirdi. Başımdan tüstü çıxdı. Bu qədər könüllü var, onlarsa cəmi iki nəfəri aparacaqlar! Mənim şansım, şübhəsiz ki, az idi, amma Allaha ümidim vardı.

Əhməd Əkbərian bayıra çıxıb ofisinin önündə dayandı. Əvvəlcə sakit və sırayla dayanmağımızı istədi. Hamımıza diqqətlə baxandan sonra dedi:

“Yaxşı qulaq asın, görün nə deyirəm. Tez Suriyaya göndərmək üçün iki nəfər istəyirlər: mən və əlavə bir nəfər. Təcrübəli və peşəkar bir topçu istəyirəm. Amma kim

bir dəfə gedibsə, onu aparmayacağam. Kimin şəraiti uyğundursa, o gəlsin içəri. Birinci şərti də budur ki, indiyədək Suriyaya getməmiş olsun. Bir də o adamlar içəri gəlsinlər ki, ata-anaları və ya həyat yoldaşları razılıq vermiş olsun. Sonradan deməyin ki, anam getməyə qoymur. Özüm də böyüklərinizlə danışacağam, kimsə, Allah eləməmiş, özündən deməsin ki, razıdırlar. Yalnız lazımi şərtlərə malik olanlar gəlsinlər".

Hər kəs telefonunu götürüb ailəsi ilə danışmağa başladı. Mənim heç kimə zəng vurmağa ehtiyacım yox idi, öncədən razılıqlarını almışdım. Cəld Əkbərianın otağına girdim. Bir neçə nəfər də mənimlə birgə içəri girdi. Salam verdim. Mənə baxıb dedi:

- Mülki geyimdə niyə? Haradaydın?

- Saatlıq məzuniyyətdəydim, eşidən kimi gəldim.

- Yaxşı, niyə gəldin? Axı sən Suriyaya getmisən! Çıx otaqdan!

Səsində amiranəlik və qətiyyət vardı, amma mən də bu asanlığa geri çəkilən deyildim.

- Hacı, yaz da. Mən hazıram.

- Yox, ağa Möhsün, sən bir dəfə getmisən. Daha olmaz! Vaxtımı alma. Mümkün deyil!

- Bu, pis deyil ki. Təcrübəm var, daha yaxşı vuruşacağam.

- Bilirəm; amma mənə deyiblər ki, cəmi bir nəfəri özünlə gətir, vəssalam.

Məni başından eləmək üçün digərləri ilə danışmağa başladı. Bilmirdim ki, nə desəm, qəbul edər. Fikirləşdim ki, razılaşmasa, dəli olaram. Ürəyimə həyəcan və narahatlıq doldu. Əgər bu dəfə alınmasaydı, bir də çətin imkan yaranaydı. Beynimə bir fikir gəldi, anama zəng

vurub məsələni ona söylədim, sonra telefonu Əkbəriana yaxınlaşdırdım. Qaşqabaqla mənə baxdı.

- Hacı, anamdır, - dedim.

Mənə çəp-çəp baxıb telefonu aldı. Salamlaşandan sonra soruşdu:

- Hacı xanım, siz Möhsünün Suriyaya getməsinə razısınız?

Anam dedi:

- Niyə razı olmayım?! Gərək Allah razı olsun.

Danışıb qurtarandan sonra telefonu mənə verdi. Fikirləşdim ki, yəqin, işim düzəldi. O isə dedi:

- Olmaz, ağa Möhsün! İsrar eləmə. Mən tərəfbazlıq edə bilmərəm. Çıx bayıra.

Dayandım. Məqsədimə çatmadan otağından çıxmağım mümkün deyildi. Cəld Zəhraya zəng vurub məsələni ona söylədim və telefonu mənə tərs-tərs baxan Əkbəriana verdim.

- Xanım Abbasi, bu ağa Möhsün həvəslənib bizi incidir. Ümidvaram siz onun getməsinə razı deyilsiniz.

Zəhra belə cavab vermişdi:

- Niyə razı olmayım, qardaş?! Biz altı aydır dua edirik ki, işi düzəlsin, getsin.

Sağollaşıb telefonu mənə verdi və dedi:

- Burda dayan, görüm nə olur.

O, nə olduğunu görüncə ölüb-dirildim. Bir neçə nəfərlə də danışdı, hamısına da dedi ki, yox, lazımi şərtlər səndə yoxdur. Digər uşaqları rədd edəndə mən kef edirdim. Axırda mənə dedi:

- Get, hazırlaş. Sabah axşam gedirik.

Yaxınlaşıb onu qucaqlamaq, öpmək istədim, qoymayıb dedi:

- Get, Möhsün, bura hərbi birləşmədir, xalanın evi deyil.

Mənsə vecimə almadım, zorla onu öpüb otağından çıxdım. Suriyaya getmək üçün hazırlaşmalı idim.

Nə gecəydi o gecə! Qalsın; deməli deyil. Ata-anamın halından xəbərim yoxdu, amma Zəhra üçün sanki Aşura gününün axşamı idi. Dayanmadan ağlayır, özünü saxlaya bilmir, tez-tez deyirdi:

- Getsən, bir də qayıtmayacaqsan; bilirəm.

Özüm də bilirdim ki, bu yolun dönüşü yoxdur; amma deyirdim:

- Qayıdacam, Zəhra, qayıdacam!

Sonra oğlum Əli ilə oynamağa başladım. Onu o qədər oynatdım ki, yatdı. Bir tərəfdə oturub vəsiyyətnaməmi yazdım və Zəhranın iş stolunun üstünə qoydum. Həmin gecə sübhə qədər yatmadıq; nə mən, nə Zəhra.

Ertəsi gün axşam getmədik. "Sabah axşam" oldu iyirmi gündən sonra. Hər günü mənə cəhənnəm oldu. Qorxurdum ki, axırda dəbbələyib yerimə başqasını apararlar. Bilirdim ki, Suriyaya getmək istəyən çoxdur. Canıma pis qorxu düşmüşdü. Bu, yersiz deyildi. Hər gün Əkbərianın ofisinə gedib soruşurdum ki, nə vaxt gedirik? Deyirdi ki, hələ bilinmir. Nəhayət, pis xəbər verildi. Əkbərian məni çağırıb dedi:

- Sənin yerinə başqası gedəcək. Get, daha bu haqda söhbət eləmə!

Mat-məəttəl ona baxdım. İnana bilmirdim. Ayaqlarımın taqəti çəkildi, az qala yıxılacaqdım. Əlimi yandakı stula dayadım. Dilim qurumuşdu, danışa bilmirdim. Deyəsən özü də vəziyyətimi anlayıb dedi:

- İnşallah, gələn dəfə. İndi sənin yerinə Hüseyn Fərhadi gedəcək.

Hüseyn bizim tankımızın komandiri idi. Necə yəni o, mənim yerimə gedəcəkdi?! Fərhadinin yanına gedib ağlamağa başladım. Nə qədər soruşdu ki, nə olub, danışmadım. Danışmaq istəsəydim də, gərək belə deyəydim: “Vəfasız, mənim ayağımın altını qazırsan?”

Fərhadi gedib-gələndən sonra dedi: “Qalx, işin düzəldi. Birlikdə gedəcəyik!”

Heyrət içində ona baxdım. Görəsən məni ələ salmır ki?! İnana bilmirdim. Gedib Əkbəriandan soruşanda dedi:

- Bəxtin gətirdi. Dedilər ki, özümlə iki nəfər aparım. İkinci adam da sən oldun. İndi get evinə, hazırlaş. Bu axşam gedirik.

# 17

Növbəti dəfə avtobusla Nəcəfabaddan çıxdıq. Bu dəfə də təyinat nöqtəsi Suriya idi. Keçən dəfə yanımda Xudadad oturmuşdu, bu dəfə Əhməd Əkbərian. Düşünürdüm ki, kaş o, geri dönəydi və növbəti dəfə Suriyaya gedəndə öz-özünə deyəydi: "Allah rəhmət eləsin! Keçən dəfə Şəhid Möhsün Hücəci yanımda oturmuşdu!"

Keçən dəfədən fərqli olaraq, dost və qohumlara zəng vurub halallıq istəməyə başladım. Hamısına dedim ki, dua edin, üzüağ olum. Şahinşəhrə çatana qədər danışdım. Axırda Əhməd dilləndi:

- Nə xəbərdir, Möhsün?! Sən dayanmadan danışırsan. Yəni bu gecə yatdı yoxdur?

- Baş üstə, rəis, - dedim, - indi bitirirəm.

- Diqqətli ol, Möhsün, bundan sonra rəis yoxdur. Mən Əhmədəm, sən Möhsün.

- Boş Möhsün də yox, - deyə gülümsədim, - Şəhid Möhsün!

Gülüb dedi:

- Yuxunda görərsən! Özüm getməyincə səni o tərəfə göndərmərəm.

Həmin gecə sübhə qədər Zəhra ilə yazışdım.

Yenə Tehran, İmam hava limanı, Dəməşq, həzrət Zeynəbin və Rüqəyyənin hərəmlərinin ziyarəti, dərhal qərargaha doğru hərəkət, bölgü və əməliyyat zonası.

Biz Tədmur vilayətinə düşdük, Nəsr qərargahına. Çoxlu briqadalar vardı; Əfqanıstanın Fatimiyyun uşaqlarından tutmuş İraqın Heydəriyyun və Həşd əl-şəbi qüvvələrinə və Livan Hizbullahına qədər. Əkbərianla mən Səlasə və habelə Qasimabad deyilən bölgədə Heydəriyyun

briqadasının zirehli taboruna düşdük. Tədmura getdik, oradan da torpaq yolla təxminən iki saat sürüb əsas düşərgəyə çatdıq. Biz düşərgənin zirehli qüvvələrinə təlim keçməli və tanklara texniki dəstək verməli idik.

Nəcəf-əşrəf diviziyasının hərəm şəhidlərinin şəkillərini də aparmışdım. Onları çadırın divarına vurdum, şəkillərin arasında bir boş yer də qoydum.

- Oranı niyə boş qoymusan? – deyə Əhməd soruşdu.

- Ora mənim şəklimin yeridir, sonradan dolduracaqlar, - dedim.

Bir neçə gündən sonra öncədən planlaşdırılmış ağır əməliyyat başladı. İkigünlük ağır döyüşlərlə İŞİD-i bir neçə kilometr geri qova bildik. Əhmədlə mənim işim tankın içindən təkfirçilərə atəş açmaq idi. Hər bir mərmini atanda ucadan "ya Zeynəb" deyirdim. Zənnimcə, bu əməliyyatda da yüz dəfə “ya Zeynəb” dedim.

Bu irəliləmədən sonra Suriya və İraqın İordaniya ilə sərhəd nöqtələrində yeni postlar quruldu. Bu postlara baş çəkmək üçün düz yolla gedə bilmirdik. Amerikalıların bazası yolumuz üstəydi, məcbur qalıb oranı dövrə vururduq. Avqust ayı, gündüzlər dəhşətli dərəcədə isti, bölgə əsl cəhənnəm kimi idi. İŞİD qüvvələri daha çox, gecələr hücum edirdilər; özü də intihar hücumları.

Əfqanıstanlı və iraqlı uşaqların bir qrupunun yerləşdiyi posta baş çəkməyə getmişdim. Axşamüstü öz postumuza qayıtmaq istəyəndə Əhməd ratsiyadan dedi:

- Hardasan?

- İndi çıxıb gəlirəm.

- Yox, gəlmə. İndi hava qaralacaq, təhlükəli olacaq. Orada qal.

Axşamlar əsla get-gəl etmirdik. Qaldım. Bir saat çadırdan bayırda qarovul dayandım. Şam vaxtı uşaqlar

zarafatlaşmağa başladılar. O gecə nə baş verəcəyini heç kim bilmirdi. Gecənin yarısına qədər oyaq qaldıq.

Yuxusuzluq başıma vurmuşdu. Əvvəl fikrim Nəcəfabada, Zəhra, Əli və ata-anamın yanına uçdu. Sonra nə qədər qohumum, tanışım vardısa, səbəbsiz yerə gözlərim önünə gəldi. Quran oxumağa başladım, sonra qalxıb gecə namazı qıldım. Dua etdim ki, aqibətim xeyirli olsun. Gecə namazından sonra Aşura ziyarətnaməsini oxudum. Saat beş oldu. Fikirləşdim ki, sübh namazımı qılıb günəş çıxana qədər bir-iki saat yataram. Dəstəmazımı təzələmək üçün bayıra çıxanda uzaqdan bir neçə avtomobilin səssizcə hərəkəti diqqətimi cəlb elədi. İŞİD qüvvələri idi və yəqin ki, intiharçılar. Qarovula xəbər verib çadıra qayıtdım və digərlərini oyatdım. Silahımı götürüb yaxınlaşmalarını gözlədim. Bilirdim ki, intihar maşınları zirehli olur və onlara güllə batmır. İntihar maşınları olmayacaqlarına ümidim də vardı. Atəş açdım. Heç nə baş vermədi. Sürətlə irəliləyirdilər. Sürücülərdən birinə güllə dəydi, maşını divara çırpılıb partladı. Alovunun işığında dörd intihar maşınının birbaş bizə doğru gəldiklərini gördüm. Güllələrimiz təsir etmirdi. Onlar da atəş açırdılar. Bəziləri vurulub yıxıldı. Bir güllə də mənim böyrümə dəydi, amma çox da təsir eləmədi.

Avtomobillər yaxınlaşanda elə də hündür olmayan bir təpəyə sarı qaçdıq. Bütün bədənimdə ağrı dolaşırdı. Bir əlimlə güllə yarasının üstünü bərk sıxırdım ki, çox qan axmasın. Təpənin arxasında əldən düşdüm, hərəkət etməyə taqətim qalmadı. Enişdə uzandım. Şəhadət biraddımlığımda idi. Mən şəhid olmaqdaydım. Allahı çağırırdım ki, İŞİD-çilər məni tapmadan getmiş olum. Amma dəqiqələr ötdü, mənsə getməyib qaldım.

Sükut hər yeri bürümüş, döyüş bitmişdi. Biz iyirmi nəfər idik. Düşündüm ki, hamısı şəhid olub, bircə mən qalmışam, gərək qalxım və hava işıqlaşmadan uzaqlaşım. Amma bacarmadım. Sürünə-sürünə getməyə çalışdım, yenə olmadı. İki İŞİD-çi mənə sarı gəlirdi. İşim bitmişdi; ya gülləyəcək, ya da əsir tutacaqdılar. Fərqi yox idi, gələcəkləri hər bir qərarın sonu şəhadət idi. Nəhayət, arzuma çatacaqdım. Sarı saqqalı olan və daha çox, çeçenlərə oxşayan bir İŞİD-çi yanımda dayanıb dedi: “Ooo, iranlı!”

Görünür, hadisə səhəri yaxın idi.

Əlimi üzümə yaxınlaşdırıb Zəhranın bir neçə ay qabaq mənə aldığı və üzərinə “ya Zəhra” yazdırdığı üzüyə baxdım. Soruşmuşdum ki, niyə “ya Zəhra” yazdırmısan? Əgər qismət olsa, bir də Suriyaya getsəm və İŞİD-çilərə əsir düşsəm, bu üzüyü görüb məni tikə-tikə edəcəklər. Zəhra narahat halda mənə baxanda isə demişdim: “Narahat olma. Əslində, yaxşı eləmisən. İŞİD-çilər bilməlidirlər ki, mən iki Zəhraya aşiqəm: Məhəmmədin (s) Zəhrası və Möhsünün Zəhrası”.

Sonra gülmüşdüm, onun da qaşqabağı açılmışdı.

# Son

Yuxuda deyildi, oyaq idi; röya deyildi, gerçək idi.

Kərbəla səhrasında olduğunu dəfələrlə yuxuda görmüşdü. Bu dəfə isə sanki yuxuda deyildi, oyaq idi.

İmam Hüseynin (ə) qoşunundan heç kim qalmamışdı. İmam qadın və uşaqların ağlaşma və qışqırıqları arasında meydana getmişdi. Meydan qanla islanmışdı, hər iki tərəfdə hər iki qoşunun cəsədləri qan içində yerə sərilmişdi. O isə sanki ayaqlarını yerə yapışdırmışdı. Nə isə etmək istəyirdi. İmamın "mənə kömək edəcək bir adam yoxmu?" deyən səsi qulaqlarında əks-səda verirdi, amma yerindən tərpənə bilmirdi. Yuxularında olduğu kimi ağırlaşıb yerə yapışmışdı.

Tərpənmədi; amma Şimrin imamın qanlı bədəni yanında dizləri üstə oturub başını bədənindən ayırdığını, sonra əlində yuxarı qaldırdığını görəndə sanki bütün dünyanı yerində donduran səslə qışqırdı. Sanki dünya bir anlığa hərəkətsiz qaldı. Düşmən qoşunu lal heykəllər kimi dayanmış, hətta atları da daşa dönmüşdü. Hamı daşlaşıb tamaşa edirdi; ondan və imamın başını yerə qoyub Hüseyn qanına bələşmiş qılıncla iri addımlarla ona yaxınlaşan Şimrdən başqa. O əyilib yerdən çox da böyük olmayan bir daş parçası götürdü. Şimr yaxınlaşanda çirkin üzündən vurmaq istədi. Daşın zərbəsini gücləndirmək üçün yarımdövrə vurdu. Şimr yaxınlaşdıqca üzü dəyişirdi. İndi qorxulu zəhmi ilə birgə, qırmızıya çalan saqqalı və qəddar gözləri olan çeçen kişiyə dönmüşdü. Gözlərini ona zilləyib dedi: "Ooo, iranlı!"

Sonra başının arxasında dayanıb saçını çəngələdi, xəncəri qırtlağının altına qoyub sıxdı. Möhsün: "ya Zəhra"

– deyə qışqırdı. Bu səs onu, düşmən qoşununun hamısını və hər il məhərrəm ayında Kərbəla hadisəsini sadəcə eşidənləri yuxudan oyatdı.

# Mündəricat


Giriş ........................................................................................................ 2
1.............................................................................................................. 4
2.............................................................................................................. 9
3............................................................................................................ 13
4............................................................................................................ 17
5............................................................................................................ 23
6............................................................................................................ 31
7............................................................................................................ 36
8............................................................................................................ 47
9............................................................................................................ 52
10.......................................................................................................... 57
11.......................................................................................................... 61
12.......................................................................................................... 64
13.......................................................................................................... 72
14.......................................................................................................... 75
15.......................................................................................................... 83
16.......................................................................................................... 90
17.......................................................................................................... 96
Son....................................................................................................... 100